# Birinci xanımın humanist missiyası



Səs
№ 216 (6416) 26 noyabr 2021-ci il. Qiyməti 40 qəpik

Azərbaycanda, eləcə də onun hüdudlarından kənarda genişmiqyaslı fəaliyyəti ilə tanınan və nüfuz qazanan Heydər Əliyev Fondu qabaqcıl və humanizm prinsipləri ilə böyük...

3

# Azərbaycan hər zaman sülhməramlı niyyətini ortaya qoyur



8

# "Messiyə ayıb deyil?"



Niderland millisinin sabiq futbolçusu Rafael van der Vart PSJ-nin hücumçusu Lionel Messini tənqid edib . Qol.az Mundo Deportivo"ya istinadən xəbər verir ki, o, argentinalı hücumçu ilə bağlı deyib: "Messi məni kədərləndirir. Bu, iradə məsələsidir. Ya istəyərsən, ya da istəməzsən. Messiyə tələb var. Qol vurmasa...

16

## Paşinyan Xankəndidəki terrorçulardan imtina etdi - Terrorçu erməni qadını saxlanıldı



## "COVID-19"-la mübarizədə vaksinasiya vacibdir



11



## Pulu əsasən nəyə xərcləyirik?

10

Kimimiz maaş alırıq, kimimiz təqaüd. Bəs, pulu əsasən nəyə xərcləyirik? Məsələni araşdırmaq üçün paytaxt sakinləri...



## Məktəblilərin narkotik vasitələrdən istifadəsinin səbəbi sosial şəbəkələrdir

16

"Azərbaycanda narkomaniyaya cəlb olunan və buna təhrik edilən azyaşlıların sayı ilə bağlı rəqəmlər çox da qorxulu...

# Azərbaycanla Rusiya
## arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir

### Prezident İlham Əliyev
### Rusiya Elmlər Akademiyasının prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu və əlaqələrimizin inkişafında humanitar sferada, o cümlədən elmi sahədə əməkdaşlığın rolu vurğulandı. Bu sahədə əməkdaşlığımızın zəngin tarixə malik olduğu bildirildi və müasir dövrdə bu əməkdaşlığın daha da möhkəmləndirilməsinin önəminə toxunuldu. Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin səfərinin elmi əməkdaşlıq sahəsində əlaqələrin perspektivlərinin müzakirəsinə və daha da genişləndirilməsinə töhfə verəcəyi qeyd edildi.

Aleksandr Sergeyev Rusiya Elmlər Akademiyasının xatirə medalını Prezident İlham Əliyevə təqdim etdi.

# Milli Məclisin sədri
## Sahibə Qafarova Sankt-Peterburqda beynəlxalq konfransda çıxış edib

**Xəbər verdiyimiz kimi, MDB PA-nın tədbirlərində iştirak etmək üçün Sankt-Peterburqda işgüzar səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova noyabrın 25-də "Səhiyyə xidmətlərinin hamıya şamil olunması və dayanıqlı inkişafın məqsədləri" mövzusunda beynəlxalq konfransda çıxış edib. Milli Məclisin sədri qeyd edib ki, COVID-19 pandemiyasının tüğyan etməsi fonunda səhiyyə xidmətlərinin hamıya şamil olunması vacibliyinin önə çıxdığı indiki dövrdə bu konfransın əhəmiyyəti böyükdür.**



Sahibə Qafarova bildirib ki, səhiyyə xidmətlərinin hamıya şamil olunmasının əsas vəzifələrindən biri müalicənin hər kəs üçün əlçatan olmasıdır. Bütün ölkələrdə səhiyyəyə qoyulan investisiyaların həcminin və keyfiyyətinin yüksəldilməsi, milli səviyyələrdə fəaliyyətlərin artırılması dünyanı bu məqsədə nail olmağa daha da yaxınlaşdıracaq.

Beynəlxalq konfransın iştirakçılarına Azərbaycan səhiyyəsi barədə məlumat verən spiker qeyd edib ki, ölkəmizdə səhiyyə sisteminin inkişafı, maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi, bu sahədə infrastrukturun yenilənməsi daim dövlətin diqqət mərkəzindədir. Ölkə rəhbərliyinin həyata keçirdiyi sosial siyasət sayəsində dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitin ilbəil artırılması tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına və ümumilikdə xidmət səviyyəsinin yüksəldilməsinə imkan yaradır.

Sahibə Qafarova bildirib ki, son 18 ildə ölkəmizdə 700-dən çox xəstəxana yenidən qurulub və əsaslı təmir olunub. Tibb müəssisələrimiz ən yüksək standartlara cavab verir. Ardıcıl olaraq səhiyyə sisteminin və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində addımlar atılır. Azərbaycanda hər il 5 milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir.

Nəzərə çatdırılıb ki, hazırda tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və əhalinin bu xidmətlərə əlçatanlığının təmin edilməsi məqsədilə ölkəmizdə icbari tibbi sığorta tətbiq olunur. Bu məqsədlə 2016-cı ildə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılıb.

Milli Məclisin sədri səhiyyə sahəsində bir sıra dövlət proqramlarının həyata keçirilməsində müstəsna xidmətləri olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini ayrıca qeyd edib. Bildirib ki, Fond şəkərli diabet və talassemiya xəstələrinə qulluq və müalicə edilməsi, qanvermə aksiyaları, ana və uşaq sağlamlığının qorunması sahələrində bir çox böyük layihələri gerçəkləşdirib.

Azərbaycan parlamentinin rəhbəri qeyd edib ki, 2030-cu ilədək səhiyyə xidmətlərinin hamıya şamil olunmasını təmin etmək BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində əsas hədəflərdən biridir. Azərbaycan öz regionunda 2030-cu ilədək olan dövrdə Gündəliyin icrasına dair 3-cü könüllü milli hesabatı təqdim edən ilk dövlətdir, dünya miqyasında isə 12 ölkədən biridir. Dayanıqlı İnkişaf Məqsədləri İndeksində 100 mümkün baldan 72,4 bal toplayan Azərbaycan 2021-ci ilədək dayanıqlı inkişaf Hesabatında 165 ölkə arasında 55-ci yeri tutub ki, bu da regionda ən yaxşı nəticədir. Bundan başqa, "insanın sağlamlığı" ölkənin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafının tərkib hissəsi və 5 milli prioritetdən biridir.

Konfransda Sahibə Qafarova son illərin bütün dünyada səhiyyə sistemi üçün sınaq dövrü olduğunu vurğulayıb. O, nəhəng elmi-intellektual potensiala və qabaqcıl texnologiyalara malik ən inkişaf etmiş ölkələrin belə koronavirus epidemiyasının yayılmasına qarşı dura bilmədiklərini təəssüflə qeyd edib.

Spiker diqqətə çatdırıb ki, keçən il dünya pandemiyaya məruz qalarkən beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi işğal altında olan Azərbaycan 1 milyondan çox qaçqın və məcburi köçkününün olmasına, Ermənistanın davamlı hərbi təxribatlarına və bunun nəticəsində torpaqlarının azad edilməsi üçün başlanmış 44 günlük müharibəyə baxmayaraq, infeksiyanın yayılması nəticəsində yaranmış təhlükələrə vaxtında və adekvat reaksiya verərək ciddi tədbirlər gördü.

Milli Məclisin sədri çıxışında pandemiya ilə mübarizədə Azərbaycan parlamentinin rolundan da söz açıb. O, məlumat verib ki, parlamentdə, həmçinin ayrı-ayrı komitələrdə problemlə əlaqədar geniş müzakirələr təşkil olunub, bir sıra qanunvericilik aktlarına əhali arasında koronavirusa yoluxma hallarının azaldılmasına xidmət edən əlavə və dəyişikliklər edilib.

Azərbaycan tərəfindən COVID-19-la mübarizədə qlobal səylərin, o cümlədən BMT və Qoşulmama Hərəkatı çərçivəsində səylərin səfərbər olunması təşəbbüslərinin irəli sürüldüyünü vurğulayan Milli Məclisin sədri Sahibə Qafarova xatırladıb ki, ölkəmiz "peyvənd millətçiliyi"ndən - zəngin ölkələrin ehtiyaclarından qatqat artıq peyvənd almasından narazılığını dəfələrlə açıq şəkildə bəyan edib. Spiker bildirib ki, noyabrın 17-də BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Assambleyanın üçüncü komitəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edilib. BMT-yə üzv olan 126 dövlət həmmüəllif qismində bu qətnaməyə qoşulub.

Parlament sədri konfrans iştirakçılarına onu da bildirib ki, Azərbaycan könüllü olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində maliyyə yardımı edib. Bununla yanaşı, koronavirusla mübarizəni dəstəkləmək üçün 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib. Azərbaycan bir neçə ölkəyə təmənnasız peyvənd dozası verib.

Çıxışının yekununda Milli Məclisin sədri Sahibə Qafarova əminliyini ifadə edib ki, parlamentarlar da öz səviyyələrində əhalinin sağlamlığının ümumbəşəri təhlükəsizliyini təmin etmək üçün bütün mümkün tədbirləri görəcək və bununla da davamlı inkişaf məqsədlərindən birinə - sağlam həyat tərzinin təmin edilməsinə və hamı üçün rifahın təşviqinə nail olacaqlar.

Sonra MDB PA-nın Şura iclası keçirilib. Milli Məclisin sədri Sahibə Qafarova MDB PA-nın Şura iclasında gündəlikdəki "Üçüncü Avrasiya Qadın Forumunun keçirilməsinin nəticələrinə dair" məsələ barədə çıxış edib.

Spiker qeyd edib ki, ümumilikdə forum qadınların müxtəlif tematik sessiyalarda canlı ünsiyyətdə olması üçün müsbət rol oynayıb. Çünki hər bir müzakirə bu və ya digər şəkildə bu gün bölgə qadınlarını narahat edən əsas suallara cavab axtarışına öz töhfəsini verir. Sülh və etimad gündəminin formalaşmasında, iqtisadiyyatın və səhiyyənin inkişafında, sosial transformasiyaların həyata keçirilməsində və davamlı inkişaf məqsədlərinə nail olmaq üçün müxtəlif layihələrin işlənib hazırlanmasında qadınların rolu böyükdür.

# Birinci xanımın humanist missiyası



*Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşan bir sıra mühüm layihələr təhsilin inkişafına təkan verir*

Azərbaycanda, eləcə də onun hüdudlarından kənarda genişmiqyaslı fəaliyyəti ilə tanınan və nüfuz qazanan Heydər Əliyev Fondu qabaqcıl və humanizm prinsipləri ilə böyük nüfuza sahibdir. Fondun fəaliyyəti dövründə həyata keçirilən genişmiqyaslı layihələr ictimai-mədəni, sosial həyatının yüksəldilməsi və inkişafı baxımından birmənalı olaraq çoxsaylı insanların həyat tərzində dönüş yaradıb. İnsanların həyat tərzində sağlam mühiti formalaşdırmaq, müasir dövrün tələblərinə və gələcəyin təminatı olan təhsilə, elmə böyük diqqət ayırmaq Fondun həyata keçirdiyi layihələr sırasında mühüm yer tutur. Bu sırada məktəb binalarının tikintisi, bərpa və yenidən qurulması, dərsliklərlə təchizatı Fondun ana xətt kimi fəaliyyətində davamlı olaraq həyata keçirilir. Heydər Əliyev Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşan "Uşaq evlərinin və internat məktəblərinin inkişaf proqramı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" və "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramları təhsilə ayrılan diqqətdir. Fondun reallaşdırdığı proqramlar çərçivəsində Şamaxı rayonunda da müxtəlif illərdə yeni təhsil ocaqlarının tikintisi, təmiri və lazımi avadanlıqla təmin edilməsi üzrə bir sıra layihələr həyata keçirilib. Bu günlərdə Şamaxı rayonunda akademik Heydər Hüseynov adına Çarhan kənd tam orta məktəbinin yeni binasının açılışı görülən işlərin davamıdır. Məktəbin əvvəlki binası 1972-ci ildə inşa olunmuşdu. Orta təhsil müəssisəsi tədris üçün artıq yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondunun təşəbbüsü ilə məktəb üçün yeni binanın tikilməsinə qərar verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın Şamaxıya səfəri zamanı məktəbin açılışı olub. 420 şagird yerlik məktəb binası 5 korpusdan ibarətdir. Burada sinif otaqları, fizika, kimya və biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, açıq idman meydançası var.



Qeyd edək ki, Heydər Əliyev Fondu elmin və təhsilin inkişafını daim diqqət mərkəzində saxlayır, bu sahədə dövlət tərəfindən görülən işlərə öz töhfəsini verir. Mehriban Əliyeva gənclərin hərtərəfli inkişafına diqqətlə yanaşaraq, uşaq və yeniyetmələrdə idmana maraq aşılamaq, onları sağlam ruhda tərbiyə etmək istiqamətində müxtəlif layihələr həyata keçirir. Onun təşəbbüsü ilə inşa olunan orta məktəb və məktəbəqədər müəssisələrdə idman zalları, futbol meydançaları, yeni salınan parklarda mini stadionlar, idman qurğuları ilə təchiz olunmuşdur.





Müasir dövrümüzdə təhsilə, elmə dövlət tərəfindən diqqət ayrıldığı zamanda Mehriban xanım Əliyeva "Təhsilə dəstək" layihəsi çərçivəsində tədrisin keyfiyyətinin yüksəldilməsinə öz töhfələrini verir. Bu proqramın adı onun mahiyyətini əks etdirir. Azərbaycanda baş verən yeniliklər təhsil sistemində də özünü göstərir. Heydər Əliyev Fondu təhsilə xüsusi önəm verərək, "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində ölkənin müxtəlif regionlarında məktəblərin yenidən qurulması, müasir avadanlıqla təmin olunması, kitabxanaların ədəbiyyatla zənginləşdirilməsi istiqamətində mühüm işlər görür. Fondun "Təhsilə dəstək" layihəsi isə birbaşa tədrisin keyfiyyətinə təsir göstərən problemlərin həllinə, təhsil ocaqlarının əyani vəsaitlə, şagirdlərin lazımi dərs ləvazimatı ilə təmin olunmasına kömək edir.





Azərbaycanın gənc nəsli biliyə, müasir texnologiyalara, elmə yiyələnməli, dünya təhsil sisteminə inteqrasiya olunmağı bacarmalıdır. Təbii ki, yetişən nəslin qarşısında belə tələblər qoyarkən, münasib şərait də yaratmaq əsas vəzifə kimi qarşıda dayanır. Reallaşan layihələrdə də məqsəd olaraq ölkəmizin hər bir gəncini daha bilikli, bacarıqlı, geniş dünyagörüşlü görməkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# BÖYÜK ZƏFƏRDƏN

## böyük dirçəliş və yüksəlişə gedən QURUCULUQ YOLU



## Prezident İlham Əliyevin bir il öncəki Qələbə səfəri ilə Qarabağın və Şərqi Zəngəzurun yeni həyatının təməli qoyuldu

**"Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq". Prezident İlham Əliyev bu sözləri 3 il əvvəl, 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciətində demişdi. Prezident İlham Əliyevin çıxışlarında bu məzmunlu ifadələr çoxdur.**

Çünki dövlət başçısının hər bir çıxışında, görüşlərində, müraciətlərində, təbriklərində torpaqlarımızın işğaldan azad olunması məsələsi prioritet idi. İlham Əliyev hər zaman bəyan edirdi ki, danışıqlar nəticəsiz qalacağı təqdirdə, güclü Azərbaycan Ordusu öz sözünü deyəcək. Artıq bu gün işğaldan azad edilmiş ərazilərimizdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanır. Azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməlləri atılır. Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə hər səfərləri zamanı vacib layihələrə start verilməsi və əhəmiyyətli layihələrin reallaşması işğaldan azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməllərinin qoyulması ilə yanaşı, həm də uğurlu inteqrasiyaya nail olmaqla, regional və beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Ermənistanın kapitulyasiyası ilə nəticələnən Vətən müharibəsinin bitməsindən cəmi 6 gün sonra - 2020-ci il noyabrın 16-da işğaldan azad edilmiş Füzuli və Cəbrayıla ilk səfəri tariximizin möhtəşən zəfərimizdən sonrakı ilen dönüş anı idi. Qalib sərkərdənin bu Qələbə səfəri hərb gücünə əldə etdiyimiz böyük zəfərin təntənəsi, işğal dövrünün bitməsinin azad edilmiş torpaqlarımızdan dünyaya bəyan olunması idi.

### Dirçəliş və yüksəlişə gedən quruculuq yolu

Artıq qələbəmizdən bir il keçməsinə baxmayaraq işğaldan azad olunmuş ərazilərimiz tikinti-quruculuq meydanlarına çevrilib. Bir il uzun müddət olmasa da, azad edilmiş ərazilər tamamilə dəyişib və quruculuq işləri sürətlə davam edir. Ötən dövrdə aparılan tikinti-quruculuq işlərinə nəzər salmaq kifayətdir. Belə ki, bu bir il ərzində Qarabağda 11 istiqamətli avtomobil yolu çəkilir, 3 hava limanı, 3 dəmiryolu tikilir, kommunikasiya stansiyaları qurulur və s. tədbirlər həyata keçirilir. Belə ki, "Zəfər" yolu azad olunmuş ərazilərdəki ən mühüm layihələrdən biri olmaqla Füzuli rayonundan Şuşa şəhərinə çəkilib və uzunluğu 101,5 kilometrdir. Bundan başqa, Əhmədbəyli-Füzuli-Şuşa, Füzuli-Ağdam, Bərdə-Ağdam, Toğanalı-Kəlbəcər-İstisu, Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Hadrut, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu, Füzuli-Cəbrayıl-Zəngilan-Ağbənd, Horadiz-Zəngilan-Ağbənd dəmiryolları çəkilir, elektrik enerjisi, su təchizatı sistemləri yenidən qurulur. İşğaldan azad edilmiş Zəngilan rayonunda ilk "ağıllı kənd", "Dost Aqropark" layihələri icra edilir. Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilanda yaşayış məntəqələrinin salınması ilə bağlı planlar hazırlanıb. Bundan başqa, Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimini keçirib. Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin bərpasının, Füzulinin Dövlətyarlı kəndində "ağıllı kənd" konsepsiyası əsasında yaradılacaq böyük yaşayış məntəqəsinin, Zəfər və İşğal muzeylərinin, Cənubi Qafqazda ilk dəfə tətbiq olunan "Rəqəmsal Stansiya İdarəetmə Mərkəzi" elektrik şəbəkəsinin təməli qoyulub. Nəzərə alaq ki, Qarabağın hava qapısı artıq hazırdır. Füzuli Beynəlxalq Hava Limanı beynəlxalq reysləri qəbul etmək imkanına malikdir. Eyni zamanda, azad edilmiş ərazilərdə 600 kilometrdən çox avtomobil yollarının salınması və təmiri həyata keçirilir. Həmin ərazilərdə çoxsahəli və genişmiqyaslı işlər aparılır. Digər tərəfdən, Zəngəzur dəhlizinin təməli qoyuldu.

### Qələbə zəfərindən Böyük quruculuğa doğru

44 günlük Vətən müharibəsində əldə edilən qələbədən sonra ölkəmizin həyatında yeni dövr başlayıb, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq, bərpa prosesinə start verilib. Prezident İlham Əliyev həmişə çıxışlarında "mənim sözüm imzam qədər qüvvətlidir"-deyir. Və işğaldan azad olunmuş torpaqlara səfərləri və qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir! Artıq tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur, artıq Xarı bülbül boynunu bükməyib. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı bərpa olunub.

"Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 18 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev buna nail oldu. Bütün müharibələrdə olduğu kimi, İkinci Qarabağ müharibəsinin taleyini də strateji bir hədəf həll edirdi ki, bu da Şuşa idi. Məhz buna görə 44 günlük müharibədə çox böyük uzaqgörənlik nümayiş etdirən müzəffər Ali Baş Komandan İlham Əliyev döyüşən ordunun böyük hissəsini Şuşa istiqamətində səfərbər etdi. Şuşa qələbəsindən sonra azğın düşmən ağ bayraq qaldıraraq təslim oldu, kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı, hələ azad olunmamış üç rayonla yanaşı, bir neçə kəndimizi boşaltmaq öhdəliyini üzərinə götürdü və Zəngəzur dəhlizinin açılmasına razılıq verməyə məcbur edildi.

### Azərbaycan Prezidenti cəmi bir il ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb

Bu gün görülən işlər göz önündədir. Azərbaycan Prezidenti cəmi bir il ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb, genişmiqyaslı layihələr icra olunur. Şuşaya Zəfər yolu, Füzuli-Şuşa ikinci magistral avtomobil yolu çəkilir, dini-tarixi abidələr bərpa olunur. İnfrastruktur layihələri icra olunur. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır. Cəmi bir il öncə Vətən müharibəsi başlayanda Azərbaycan Prezidenti xarici KİV-ə verdiyi müsahibələrdə qətiyyətlə, inamla deyirdi ki, işğaldan azad edilmiş torpaqlar yenidən qurulacaq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Yeni-yeni infrastrukturlar yaradılacaq. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda siyasi münasibətlər sahəsində də müsbət meyillər güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq.

Bütün bunlar bir daha təsdiq edir ki, azad edilmiş ərazilərimizin vahid konsepsiya əsasında bərpası ölkənin iqtisadi potensialının genişlənməsinə səbəb olacaq. Bu ərazilərin reinteqrasiyası ölkə iqtisadiyyatına müsbət təsir göstərəcək, iqtisadi artıma səbəb olacaq. Qarabağın bərpa prosesi çoxşaxəli olduğu üçün nəinki həmin ərazilərin, ümumilikdə ölkə iqtisadiyyatının bir çox sektorlarının inkişafı üçün yeni imkanlar yaranacaq.

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. Bir sözlə, ötən bir il ərzində həm siyasi, həm də iqtisadı baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində çox qısa zamanda Qarabağın yenidən dirçələcəyinə, 2022-ci ildə də yeni-yeni uğurlara nail olacaq.

***RƏFİQƏ KAMALQIZI***

# Bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açan Nizami dühası

Yer üzünə incini sözlə saçıbdır qələm,
Kainatın gözünü sözlə açıbdır qələm.
Dünyaya sözdü şərəf, gör ki, nədir qiyməti,
Danışmaqla, yazmaqla itməz qədir-qiyməti.

Sözün gücü heç nə ilə ölçülməz. Bizə cəsarət verən, ruhumuzu yaşadan söz ilə dünyaya öz fikirlərimizi çatdıra bilirik. Söz bir aynadır, deyirlər və o aynada söz sahibinin qəlbini, düşüncəsini, həqiqi kimliyini görmək mümkündür. Söz insanlar arasında körpüdür və milyonların ünsiyyətində vacib amildir. Azərbaycanın böyük mütəfəkkiri, dahi şair Nizami Gəncəvi sözə böyük qiymət verərək, kainatın gözünü sözlə qələmin açdığını söyləməsi əbəs deyildi. Hər sözün xüsusi bir ölçüsü var, - deyən Nizami sözdən mahircəsinə istifadə etməyin gözəlliyini qələmə alır. Elə şairin sözə verdiyi qiyməti onun bütün yaradıcılığı boyu sezilir. Sözdən məhrətlə istifadə edən şair fikir dünyasının fəlsəfi gücünü məhz söz ilə qələmə alır və bütün dünyanın böyük Nizami Gəncəvisinə çevrilir. Hər misrasında bir hikmət var, həyat dərsi və fəlsəfəsi var. Sözə rəng verən, onu bəşəriləşdirən fikir yükü Azərbaycanın söz sultanının dünyada tanınmasına səbəb oldu.



Əlbəttə ki, sözdən məharətlə istifadə edən və böyük əsərlərin müəllifi olan Nizami Gəncəvi zəmanəsinin şairindən əsrlərin şairinə çevrildi. Söz ilə öz mülkünün əbədi təməlini qoydu və 800 ildən artıqdır ki, söz mücrüsü ilə yol gəlir - şərəf bilinən bir yol. Dünyaya ədaləti, bəşəri dəyərləri, insanlığı əxz edə-edə. Dünyanın nadir dahiləri sırasında məhz Azərbaycan şairi Nizami Gəncəvinin adının yer alması böyük qüdrətdən, parlaq zəkadan, fitri istedaddan və bir şəxsiyyət obrazından xəbər verir. Söz mülkündə xoşbəxt görünən Nizami cəmiyyət ilə ünsiyyətində ədalətli bir şah kimi çıxış edir.

Bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdən olan Nizami Gəncəvinin irsi xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq bu ili ölkəmizdə ”Nizami Gəncəvi İli” elan edib. Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış ”Xəmsə”si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Ümummilli Lider Heydər Əliyev Nizami Gəncəvi irsinə böyük diqqət ayırmışdır. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə dahi Nizaminin yubiley tədbirləri təntənəli surətdə qeyd edilmiş, onun əvəzsiz yaradıcılığının dünya miqyasında təşviq edilməsi ilə bağlı geniş miqyaslı tədbirlər həyata keçirilmişdir. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. Gəncə şəhərində Nizami Poeziya evinin yaradılması, Gəncədə Nizami məqbərəsinin yenidən qurulub, onun adına layiq olması ilə əlaqədar göstəriş verməsi, Bakıda metrostansiyaya ”Nizami” adının verilməsi məhz Ulu Öndərin təşəbbüsü ilə reallaşıb.

Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir. Şərqin fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini ərsəyə gətirən Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Bu gün paytaxtımızda keçirilən ”Nizami Gəncəvi: Mədəniyyətlər arasında körpü” mövzusunda Nizami Gəncəvi Beynəlxalq Forumu Nizami dünyasından dünyaya bir mesajdır. Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr edilmiş Beynəlxalq Forum dahi mütəfəkkirin zəngin ədəbi irsini araşdıran nüfuzlu beynəlxalq alim, tədqiqatçı və elm adamlarını bir araya gətirib. Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yubiley ili çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən Nizami irsinin beynəlxalq səviyyədə təbliği məqsədilə əcnəbi dillərdə bir sıra nəşrlər çap olunub. ”Xəmsə” kimi şah əsərini yaradaraq insanları yaxşılığa, mərhəmətə, dostluğa çağıran Nizami səkkiz əsrdən artıq bir müddətdə dünya ədəbiyyatına töhfələrini verib. Ensiklopedik biliyə malik olan şair astronomiyanı, fəlsəfəni, coğrafiyanı, tibbi və riyaziyyatı, eyni zamanda, 7 dili mükəmməl bilən alim kimi dünyaya ədəbiyyatına möhrünü vurub.

***ZÜMRÜD BAYRAMOVA***

## Ceyhun Bayramov: “Azərbaycan delimitasiya prosesinə başlamağa hazırdır”



Noyabrın 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Annika Söder ilə videokonfrans formatında görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari təhlükəsizlik vəziyyəti, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, o cümlədən regionda nəqliyyat kommunikasiyaların açılması ilə bağlı Azərbaycan tərəfindən görülən tədbirlər və digər məsələlər barədə qarşı tərəfə məlumat verib. Azərbaycanın bölgədə uzunmüddətli sülh və əmin-amanlığın təmin olunması mövqeyindən çıxış etdiyi vurğulanıb. Azərbaycanın beynəlxalq hüququn prinsipləri əsasında Ermənistanla delimitasiya prosesinə başlamağa hazır olduğu, lakin Ermənistan tərəfindən buna qarşılıq verilmədiyi qeyd edilib.

Nazir, həmçinin azad olunmuş ərazilərdə Azərbaycan tərəfindən həyata keçirilən quruculuq işlərindən danışıb, eləcə də ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən irimiqyaslı regional layihələr, onların geniş coğrafi bölgənin inkişafı və tərəqqisinə xidmət etdiyini bildirib.

Öz növbəsində xüsusi nümayəndə Annika Söder ATƏT-in fəaliyyətdə olan sədri qismində İsveçin Cənubi Qafqaz bölgəsində regional əməkdaşlığı, bu xüsusda Azərbaycanın səylərini dəstəklədiyini bildirib, bu istiqamətdə fəaliyyətin bütün bölgənin inkişafı üçün önəmli olduğunu ifadə edib.

Tərəflər, Azərbaycanın ATƏT ilə əməkdaşlığı, o cümlədən həyata keçirilən layihələri və gələcək planları, habelə cari ilin dekabr ayında Stokholm şəhərində keçiriləcək qurumun Nazirlər Şurasının 28-ci iclasına hazırlıq məsələlərini müzakirə ediblər. Görüşdə tərəflər, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## XİN: ”Azad edilmiş ərazilərin bərpası istiqamətində böyük işlər görülür”



“Bu günədək fəaliyyətimizin əsas hissəsi Ermənistanın bizə qarşı törətdiyi təcavüz və onun nəticələrini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq olub”. SİA-nın verdiyi məlumata görə, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva ”Karabakh Memorial” internet resursunun təqdimat mərasimində deyib. O qeyd edib ki, söhbət 30 ilə qədər davam edən və müstəqilliyinin ilk illərindən Azərbaycana qarşı davam edən təcavüz siyasətindən gedir: ”Ekosid törədilib, çaylarımız çirklənidirilib, meşələrimiz məhv edilib. Azərbaycanın mədəni, tarixi irsi dağıdılıb. Bu gün Azərbaycan məğrur xalq kimi dünya qarşısında çıxış edir. Azərbaycan hökuməti tərəfindən işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində böyük işlər görülür”.



# Moskva:

## “Biz Qarabağda sabitliyin möhkəmləndirilməsi üçün nə lazımdırsa edirik”

Moskva Qarabağda sabitliyin möhkəmləndirilməsi və dinc həyatın bərqərar olması üçün hər cür səy göstərir. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bunu Moskvada keçirdiyi brifinqdə bəyan edib.

Diplomat vurğulayıb: ”Deyə bilərəm ki, regionda sabitliyin möhkəmləndirilməsi və dinc həyatın bərqərar olması üçün nə lazımdırsa edirik. Əlbəttə, hazırda ticari-iqtisadi və nəqliyyat əlaqələrinin bərpası və inkişafı məsələləri də diqqət mərkəzindədir”.

## Azərbaycan Türkiyədən quru çay idxal edəcək



Azərbaycanın Türkiyədən quru çay idxal etməsi ilə bağlı iki ölkənin şirkətləri arasında müqavilə imzalanıb. SİA xəbər verir ki, bu barədə qonşu ölkənin çayçılıq müəssisələrini birləşdirən ”Çaykur”un baş direktoru Yusuf Ziya Alim məlumat verib. Onun sözlərinə görə, müqavilə Azərbaycanda 1 000-ə yaxın satış nöqtəsi olan şirkətlərdən biri ilə bağlanılıb.

”Azərbaycanlı qardaşlarımızla türk çayını bir araya gətirməkdən xoşbəxtik”, - deyə Y.Z.Alim qeyd edib.

# Erməni terrorizmində hədəf qurbanlar deyil, sağ qalmış insanlardır









**Dünya dövlətləri, xüsusilə də, ABŞ özünə ən böyük təhlükəni beynəlxalq terrorizmi görür. Ekspertlərin gəldikləri qənaətə görə, beynəlxalq terrorizmin digər cinayətlərdən fərqi ondadır ki, orada, eyni zamanda, üç tərəf iştirak edir. Birincisi, onun təşkilatçıları - Sarkisyan rejimi və ətrafı, ikincisi, terrorun qurbanları (Xocalıda 63 uşaq olmaqla, ümumilikdə, 613 insan soyqırıma məruz qalmışdır), üçüncüsü isə, terrordan sağ qalan insanlar. Beynəlxalq terrorizmdə terrorçuların hədəfi qurbanlar deyil, sağ qalmış insanlardır. Terrorçular törətdikləri cinayətləri nə qədər dəhşətli tərzdə yerinə yetirirlərsə, sağ qalmışlara qarşı təsiri bir o qədər çox olar. Bununla da, siyasi motivli planların həyata keçirilməsi üçün unikal imkanlar əldə etmiş olurlar.**

Bu mənada, Xocalıda insanlığa və bəşəriyyətə qarşı yönələn soyqırım törətməklə erməni terrorçuları ətraf rayonların əhalisini qorxudub, torpaqların işğalını həyata keçirmək niyyəti güdmüşlər. Uzağa getməyib yaxın tariximizdə - 2001-ci il 11 sentyabrında ABŞ-da baş verən terror aktını da əlavə misal olaraq göstərmək olar. O zaman terrorçuların hədəfi öldürülən 3000 nəfər deyildi. Məqsəd sağ qalanlar olmuşdur. O mənada ki, sağ qalanlar terror aktından dəhşətə gələcək və hakimiyyət müsəlmanlara qarşı cəza tədbirlərinə başlayacaq. Bu zaman isə müsəlmanlar təcavüzdən özlərini qorumaq üçün ayağa qalxacaqlar. Prinsipcə terrorçu nə qədər vəhşicəsinə qətliamlar həyata keçirsə, qəddarlıqlar törətsə, bir o qədər planlarını reallaşdırmağa yaxın olduqlarını düşünürlər. Qətliamdan qaçanlar gedib, insanlara çatdırırlar ki, cinayət yerində uşağa, qocaya, qadına baxmırlar, hər kəs vəhşicəsinə öldürülür, çarmıxa çəkilir, işgəncələrə məruz qalır. "Uzaqlara qaçmaq, gözlənilən faciələrdən qurtulmaq deməkdir". Bu ssenarini ermənilər 1992-ci il fevral ayının 26-da Xocalıda törətdilər. Məhz bu soyqırımdan sonra digər ərazilərdə işğal edildi. Xocalı sanki digər rayonların işğalı üçün katalizator rolunu oynadı. Ermənilər Xocalıda soyqırımın miqyasını o qədər genişləndirdilər ki, bunu beynəlxalq terrorizm kimi dəyərləndirməmək mümkün deyil. Çünki erməni terrorizmi beynəlxalq terrorizmin tərkib hissəsidir. Bu qaydaları erməni terrorçuları çox gözəl bilirlər. Beynəlxalq terrorizmin digər cinayətlərdən, həm də fərqi ondadır ki, cinayətdə şəxsi varlanma əsas götürülür. Cinayətkar girir evə, dağıdır, pulu, qızılı götürüb gedir. Beynəlxalq terrorizmdə isə vara-dövlətə maraq göstərilmir. Məqsəd yalnız siyasi motivdir. Hökumətə və xalqa işarə vurulur ki, bu cinayətlərdən də dəhşətlisini edə bilərik, bizim şərtləri qəbul edin. Adi cinayətdə müstəntiq törədilmiş cinayətlərin etiraf edilməsi üçün dəridən-qabıqdan çıxır. Beynəlxalq cinayətdə isə "biz etmişik, bundan da dəhşətlisini edə bilərik" deyə bildirirlər. Necə ki, Serj Sarkisyan terrorçulara xas formada demişdir ki, "Azərbaycanlılar inanmırdılar, elə bilirdilər biz onlarla zarafat edirik. Amma Xocalıda onlara başa saldıq ki, biz sizinlə zarafat etmirik. Biz qocaya, qadına və uşağa baxmadan hamısını məhv edərik". Erməni terrorizmi budur. Beynəlxalq terrorizmin davamı olan terrorizm.

## AZƏRBAYCANLILARIN SOYQIRIMI

Ermənilərin azərbaycanlılara qarşı uzun illər apardıqları ardıcıl etnik təmizləmə və təcavüzkar siyasətləri nəticəsində minlərlə azərbaycanlı soyqırıma məruz qalmış, şikəst olmuş, elindən-obasından didərgin düşmüşdür. Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının işğalı ilə müşayiət olunmuşdur. Ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdikləri soyqırım siyasətləri dövrün ayrı-ayrı mərhələləri təşkil edilmişdir. 1813-1828-ci illər Rusiya ilə İran arasında gedən iki müharibənin sonunda imzalanmış Gülüstan (12 oktyabr 1813-cu il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri Azərbaycan xalqının tarixində faciəvi rol oynamış və Azərbaycanın parçalanmasına gətirib çıxarmışdır. Azərbaycanın şimalı Rusiyanın, cənubi isə İranın idarəçiliyinə keçmişdir. 1918-1920-ci illər birinci Dünya müharibəsindən sonra Rusiyada yaranmış vəziyyətdən istifadə edən ermənilər öz istəklərinə bolşevizm bayrağı altında nail olmağa cəhd etdilər. Bakı Sovetinin əks-inqilabi elementlərlə mübarizə şüarı 1918-ci ilin əvvəllərindən başlayaraq bütün Bakı quberniyasında yaşayan azərbaycanlıların çıxarılması məqsədlərini güdən cinayətkar planın reallaşmasına hesablanmışdır. 1918-ci ilin mart-aprel aylarında isə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qanlı hadisələr zirvə nöqtəsinə çatmışdır. Ermənilər tərəfindən onlarla məktəb, xəstəxana, məscidlər və digər tikililər dağıdılır. Azərbaycanlıların soyqırımı xüsusi qəddarlıqla Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın digər ərazilərində həyata keçirilir. Bu torpaqlarda kütləvi qaydada dinc əhali qırılmış, kəndlər yandırılmış, milli mədəniyyət abidələri məhv edilmişdir. 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba- Muğan və Lənkəranda ermənilər 70 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar. Tarixə nəzər salanda görərik ki, bəzən böyük dövlətlər müharibə ocaqlarının yaranmasında ermənilərdən istifadə ediblər. Ruslar əsrlər öncə bölgədə erməni dövlətinin qurulmasına səylər və yardımlar göstərmişlər. 19 may 1783-cü ildə Knyaz G.A.Potyomkin II Katerinaya yazdığı məktubda deyilir: "Fürsət tapan kimi Qarabağı ermənilərin idarəsinə vermək və beləcə Asiyada bir Xristian dövləti qurmaq lazımdır". Məhz "Asala", "Daşnaksütyun" kimi terrorçu təşkilatları da Türkiyə və Azərbaycana qarşı düşmən mövqedə olan dövlətlərin xeyirduası ilə yaradılıb.

*Ardı Səh. 7*

Əvvəli Səh. 6

20-ci əsrin əvvəllərində azərbaycanlıların ermənilər tərəfindən kütləvi soyqırıma məruz qalması da rusların, fransızların, ingilislərin yardımı ilə həyata keçirilib. Tarixi sənədlər subut edir ki, xarici hərbi siyasi dəstək hesabına 1905-1907,1918-1920, 1948-1953-cü illərdə Cənubi Qafqazdakı tarixi ərazilərdə etnik təmizlənmə və soyqırım siyasətinə məruz qalan yüz minlərlə Azərbaycan türkləri erməni daşnakları tərəfindən kütləvi şəkildə qətlə yetirilmişdir. Bir faktı da qeyd etmək lazımdır ki, 1918-ci il sentyabr aynın 20-si və 26- da Bakı bolşevikləri Ağcaqum çöllərində güllələnməyə aparılarkən yolda qəflətən Anastas Mikoyan və Stepan Şaumyan yoxa çıxmışdır. Sonradan məlum olur ki, Şaumyan heç də Qafqazda imperiyalar və ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi güllələnməmiş, əksinə, ingilis gəmiləri ilə İrana qaçmış, oradan isə Dehli şəhərinə getmişdir. Ömrünün sonuna qədər də Hindistanda yaşamışdır.













## Terrorçular nə qədər vəhşicəsinə qətliamlar həyata keçirsə, bir o qədər planlarını reallaşdırmağa yaxın olduqlarını düşünürlər

Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ ərazisində yaşayan azərbaycanlılara qarşı amansızcasına vəhşilik siyasəti yeridilməsi üçün Rusiya hökumətinin himayəsi və köməyi ilə ermənilər 1905-1907, 1918-1920-ci iilərdə və eləcə də, sonrakı ayrı-ayrı illərdə kütləvi qətliam siyasəti həyata keçirmişlər. Nəticədə, Azərbaycanın Zərgəzur, İrəvan, Naxçıvan, Ordubad, Şamaxı, Qazax və Qarabağ ərazilərində yüzlərlə kənd yandırılmış, 10 minlərlə insan öldürülmüş və şikəst olunaraq ev-eşiklərindən didərgin salınmışdır. 1918-1920-ci illərin 31 mart hadisələri ilə bağlı birmənalı mövqe ondan ibarətdir ki, ermənilər 10 minlərlə azərbaycanlını qətlə yetirmişdir. Hələ 1918-ci ilin martında Rusiya bolşeviklərinin lideri Vladimir Lenin bolşevik Stepan Şaumyanı Qafqaz fövqəladə komissarı təyin edərək, Bakıya göndərmişdir. Məqsəd isə bolşeveklər vasitəsi ilə hakimiyyəti ələ keçirmək adı ilə ermənilərin əsas aparıcı qrupları olan daşnakları silahlandırmaq və onların vasitəsi ilə Azərbaycanda ermənilərin daha geniş ərazilərdə yerləşdirməsini təmin etməkdən ibarət olmuşdur. Martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğını olmuşdur. Stepan Şaumyanın sonradan yazılı sənədlərə verdiyi açıqlamalarında və etiraflarında qeyd edir ki, dinc azərbaycanlıların qətlə yeririlməsində Bakı Sovetinə 6 min silahlı əsgər və eyni zamanda, "Daşnaksütyun" partiyasının 5 min nəfərdən ibarət silahlı dəstəsi iştirak etmişdir. 3 gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə Azərbaycan məhəllələrinə girərək uşaqdan-qocaya qədər hər bir insanı qətlə yetirmişdilər. Həmin dəhşətli günlərin şahidi olmuş Pumnir familiyalı bir alman jurnalisti 1925-ci ildə qələmə aldığı məqaləsində Bakıda törədilən insan qətliamı ilə bağlı bunları qeyd etmişdir: "Ermənilər müsəlman məhəllələrinə girərək, hər kəsi öldürür, qılıncla parçalayırdılar. Bu qırğından bir neçə gün sonra bir çuxurdan yalnız 87 azərbaycanlının cəsədi çıxarılmışdır. Onların qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış və cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi yaşlılara da rəhm etməmişdilər".

## 2 milyon azərbaycanlı qətlə yetirilmiş və öz ev-eşiklərindən didərgin salınmışdır

20-ci əsrin 1-ci yarısında Zaqafqaziyada baş vermiş 1905-1907 və 1918-1920 il qətliamları zamanı, ümumilikdə, 2 milyondan yuxarı azərbaycanlı qətlə yetirilmiş və öz ev-eşiklərindən didərgin salınmışdır. 31 mart qırğınları zamanı Bakı şəhərinin təkcə indiki qala qapısı ərazisində qulaqları, burunları kəsilmiş və qarınları yarılmış 100-ə yaxın azərbaycanlı qadının meyiti tapılmışdır. Gənc qadınların diri-diri divara mıxlanması erməni vandalizminin ən vəhşi nümunəsi sayıla bilər. Qaçıb canını qurtarmağa çalışan əhalini güllələbaran etmək üçün isə ermənilər şəhərin müvafiq yerlərində əvvəlcədən plemyotlar yerləşdirmişdilər. Burada canlarını qurtarmağa çalışan dinc sakinlərə və vətəndaşlara, bir sözlə, azərbaycanlılara aman verilmədən güllələbaran edirdilər. İrəvan quberniyası, Şərur, Dərələyəz, Qars və digər ərazilərdə azərbaycanlılara qarşı qırğınların törədilməsində fəal iştirakçılardan biri olmuş Ovanes Oqanesiyanın etirafları əsasında amerkalı jurnalist və yazıçı Ramistin Hartvil "İnsanlar belə imişlər" adlı kitab yazmışdır. Ovanes Oqanesiyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin Rusiyanın yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək təkcə Bakıda mart qırğınları zamanı 30 mindən çox azərbaycanlını qətlə yetirdiklərini bildirib. 1918-1920 illər soyqırımı zamanı daşnakların azərbaycanlılara qarşı soyqırımı yalnız Bakı şəhəri ilə kifayətləndirilməmişdir. Onlar sonrakı mərhələlərdə Şamaxı, Quba, Naxçıvan, İrəvan, Zəngəzur, Qarabağ və digər yaşayış yerlərində azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmişdilər. 1918-ci ilin mart-aprel aylarında Şamaxıda təkcə 10 minə qədər dinc sakin qətlə yetirilmişdir. 1918-ci ildə Şamaxıda ermənilərin törətdiyi soyqırım zamanı yanğından sonra tapılmış salamat qalan Quran səhifələri. Hazırda Azərbaycanın dini mərkəzi hesab olunan Şamaxı Cümə məscidinə insanları kütləvi şəkildə dolduraraq diri-diri yandırmışdılar. Tarixi faktlara və sənədlərə istinadən o fikri də qeyd etmək olar ki, Cavanşir qəzasında 28 kəndi, Cəbrayıl qəzasında 17 kəndi tamamilə yandırılmış və minlərlə insan öldürülmüşdür. 1918-ci ilin aprel ayının 29-da Gümürü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü erməni pusqusuna düşərək, son nəfərədək öldürülmüşdür. Erməni silahlı dəstələri Naxçıvan qəzasında 45, Zəngəzur qəzasında 115 Azərbaycan kəndi yandırılmış, 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüşdür, 50 min azərbaycanlı qaçqın düşmüşdür. İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı soyqırıma məruz qalmışdır, kəndlər isə yerlə yeksan olunmuşdur. Erməni silahlı dəstələri daha sonra Azərbaycanın dilbər güşəsi olan Dağlıq Qarabağa silahlı hücum etmiş, ümumilikdə, 34 min azərbaycanlı qətlə yetirilmiş, 27 min insan isə şikəst edilmişdir. 1920-ci illn may ayında ermənilər Rusiyanın 9-cu Qızıl Ordunun iştirakı ilə Gəncədə 12 mindən çox azərbaycanlını qətlə yetirmişlər. Sonrakı mərhələlərdə də, yəni Sovetlər İttifaqının yaradılmasından sonra da ermənilər Azərbaycana qarşı öz düşmənçilik və qətliam siyasətlərindən əl çəkməmiş "böyük Ermənistan" yaradılması iddialarını gerçəkləşdirmək üçün hər cür iyrənc və yaramaz vasitələrdən istifadə etməyə çalışmışlar. Tarixin sonrakı dövrlərində də ermənilər azərbaycanlılara qarşı soyqırımı siyasətini davam etdirmişlər. Hətta onlar az sayda olan qüvvələrini xarici ölkələrdə yaşayan ermənləri Azərbaycan ərazilərinə yerləşdirilməsinə nail olmaqla möhkəmləndirməyə çalışmışlar. Xüsusilə də İrandan, Suriyadan, Fransadan Dağlıq Qarabağa yerləşdirilən ermənilər sonradan azərbaycanlılara qarşı çevrilən yarımvəhşi qüvvələr olmuşlar. 1943-cü ildə Tehranda keçirilən konfrans zamanı Sovet-İran münasibətləri müzakirə edilərkən, ermənilər o zaman SSRİ xarici işlər naziri Molotovdan İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsi üçün ondan Stalindən xahiş etmələrini diləmişdilər. Molotov məsələni SSRİ Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi İosif Stalinə çatdırır və ermənilərin köçürülməsinə razılıq alır. Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Qriqori Arutyunov bundan istifadə edərək, xaricdəki erməniləri, Ermənistana köçmək həvəsini artırmaqla azərbaycalıların Ermənistandan zorla çıxarılması barədə qərar verilməsinə müvəffəq olmuşdur. 1947-ci ilin dekabr ayının 23-də SSR Nazirlər Soveti Ermənistan SSR-dən azərbaycanlıların Azərbaycan SSR-in Kür və Araz ovalığına köçürülməsi haqqında qərar çıxarır. Stalin tərəfindən 1948-1953-cü illərdə həyata keçirilən azərbaycanlıların növbəti deportasiyası zamanı ermənilərin xüsusilə diqqət mərkəzində saxladıqları məsələ iqtisadi, sosial və mədəni cəhətdən güclü, strateji və əhəmiyyətli Azərbaycanın yaşayış məntəqələrinin boşaldılması olmuşdur. Bu səbəbdən, ilk mərhələdə İrəvan şəhəri yaxınlığında yerləşən yaşayış məntəqələri azərbaycanlılardan təmizlənmişdir. Sonrakı mərhələdə isə rayon mərkəzləri ətraf kənd və qəsəbələrdə azərbaycanlılardan boşaldılmışdır. Deportasiyaya məruz qalan əhalinin bir hissəsi Ermənistanın dağ rayonlarında yaşadığı üçün Kür və Araz ovalığındakı iqlim şəraitinə dözümsüz olmuşdular. Nəticədə isə, bu ərazidə yerləşdirilən əhali çətin və ağır yaşayış şəraiti ucbatından həyatlarını itirmiş, şikəst olmuşlar. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, Ermənistandan köçürülən bir nəfər azərbaycanlının da Qarabağda yerləşdirilməsinə imkan verilməmişdir. Bu da onu deməyə əsas verirdi ki, ermənilərin əsas niyyəti azərbaycanlıları Qarabağa buraxmamaq olmuşdur. Bununlada "böyük Ermənistan " iddialarını yenidən reallaşırmaq üçün azərbaycanlıların təmizləndiyi ərazilər hesabına öz məkrli niyyətlərini reallaşdırmaq olmuşdur. O zaman Qarabağdan 132 ailə, ümumilikdə, 560 nəfər Azərbaycanın Xanlar rayonuna köçürülmüşdür. Bu fakta nəzər yetirsək, görərik ki, burada Ermənistandan Qarabağa azərbaycanlılar yerləşdirilməyib, əksinə, azərbaycanlıların Qarabağdan Azərbaycanın digər bölgələrinə yerləşdirilməsi siyasəti həyata keçirilmişdir. Bu da bir daha təsdiq edir ki, Moskva o zamandan ermənilərə himayədarlıq etmək və onlara dəstək vermək kimi siyasətini həyata keçirmişdir.

**İ.ƏLİYEV**

# Azərbaycan hər zaman sülhməramlı niyyətini ortaya qoyur



**Məlum olduğu kimi, 2021-ci il noyabrın 26-da Soçidə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçiriləcək. Məlumatı Kremlin mətbuat xidməti yayıb. "Rusiya dövlət başçısının təşəbbüsü ilə keçiriləcək danışıqlarda üç ölkə liderinin 9 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli bəyanatların icrasına baxılması, o cümlədən regionda sabitliyin möhkəmləndirilməsi və dinc həyatın bərqərar olması üçün gələcək addımların müəyyənləşdirilməsi planlaşdırılır",- deyə məlumatda deyilir.**

Kremlin məlumatında o da qeyd olunub ki, Putinlə Nikol Paşinyan və İlham Əliyev arasında ayrıca danışıqlar da nəzərdə tutulur. Həmçinin, o da vurğulanır ki, 2020-ci il və 11 yanvar 2021-ci il tarixli sazişlərinin icrasına baxılması, o cümlədən regionda sabitliyin möhkəmləndirilməsi və dinc həyatın bərqərar olması üçün gələcək addımların müəyyənləşdirilməsi planlaşdırılır. Ticarət-iqtisadi və nəqliyyat əlaqələrinin bərpasına və inkişafına xüsusi diqqət yetiriləcək.

## Siyasi təlxəyin fantaziyası tükənmir....

Təlxək Paşinyan. Prezident İlham Əliyev erməni baş naziri boşuna belə adlandırmadı. Təlxək sözü ona yaraşan ən gözəl ifadədir. İndi sizə Paşinyanın təlxəkliyini sübut edən növbəti faktı göstərəcəyik. Son günlərə qədər dünya liderlərini zəngləri ilə bezdirən Paşinyanın bunun bir nəticə vermədiyini görüb daha bir gülməli addım atıb. O öz tvitlərinə Donald Tramp, Emanuel Makronu işarələyir. Bir siyasətçinin başqa siyasətçiləri tvitinə işarələmək yolu ilə diqqətini cəlb etmək istəməsi isə dünya diplomatiyasında acizlik kimi qəbul edilir.

Müharibə başlayan gündən məğlub olduğunu görən Ermənistan baş naziri Nikol Paşinyan dünya liderlərini zəngləri ilə bezdirmişdi. Çünki aciz vəziyyətdə olduğundan onlardan durmadan kömək istəyirdi. Hətta vəziyyət o yerə çatmışdı ki, Paşinyan gündə bir neçə dəfə Rusiyanın prezidenti Vladimir Putinə, Fransanın prezidenti Emanuel Makrona zəng etməli olurdu. Onun bu zəngləri dünya mediasında da geniş işıqlandırılmışdı. Hətta imdad dilədiyi liderlərin onun zənglərini cavabsız qoyması haqda videolar da sosial şəbəkələrdə trendə çevrilmişdi.

Dünyanın heç bir ölkəsi, heç bir siyasi xadim bu vəziyyətdə Paşinyana kömək edə bilməzdi. Çünki hər kəs Azərbaycanın öz haqqı olan torpaqlarını geri qaytardığını təsdiqləyir. Elə buna görə də, telefon zəngi ilə perzidentləri bezdirən Paşinyana deyəsən zəng qadağası qoyulub. Acizliyə bax ki, küçədən hakimiyyət kreslosuna gələn erməni baş nazir artıq tvitterə bel bağlayıb. Tvitterdə paylaşım edən paşinyan donald trampı, emanuel makronu da öz postlarında işarələyir. Özü də utanmazcasına. Humanitar atəşkəs rejmini cəmi 4 dəqiqə sonra özü pozan Paşinyan atəşkəsin guya Azərbaycan tərəfindən pozulduğunu yazır və imdad diləyir. O, bu gün paylaşdığı bir posta həm Makronu, həm Trampı, həm də rəsmi Kremlini əlavə edib. Növbəti tvitə isə yalnız Donald Trampı təq edib. Amma nə faydası? Atəşkəs üçün yalvaranın da, atəşkəsi kimin pozduğunun da, mülki əhaliyə silah tuşlayıb uşaq qatili olanın da kimliyini dünya liderləri yaxşı görür və bilir.

## Paşinyanın sərsəm, manipulyativ fikirləri haraya qədər

Qeyd edək ki, üçtərəfli görüş noyabrın 9-da keçirilməli idi. Ermənistanın baş naziri Nikol Paşinyan yenə də təlxəkliyi ilə mətbuata verdiyi açıqlamalarında bildirib ki, guya hərbi əsirlərin qaytarılması ilə bağlı qərarın olmaması səbəbindən noyabrın 9-da Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyevlə videokonfrans vasitəsilə üçtərəfli görüşdən imtina edib. Yenə də sərsəm, manipulyativ fikirlər, yanlış rəy formalaşdırmaq. Rusiya mənbələri də təsdiq ediblər ki, görüşün baş tutmamasının səbəbkarı məhz Paşinyandır. Diplomatik mənbələr təsdiq edirlər ki, Ermənistan tərəfi tədbirə bir gün qalmış hər hansı səbəb göstərmədən tədbirə qatılmaqdan imtina edib. Rusiya tərəfinin təklifi ilə tərəflər arasında 9 noyabrda görüşün yekun bəyanatı da hazırlanırdı. O, bu addımı ilə Paşinyan hər vəclə xilas üçün etdiyi cəhdlərdir. Bu, nə birinci, nə də sonuncu təlxəkliyidir. Sentyabrın 27-dən onu tez-tez qışqırıb-bağıran, məntiqsiz ittihamlar irəli sürən vəziyyətdə görürük. Gah hansısa "suriyalı yaraqlılardan" danışır, gah "yadplanetlilərin Qarabağ müharibəsində iştirakına" bənzər iddialar səsləndirir, gah Rusiyanı təhdid edir, ardınca Moskvadan kömək istəyir, gah İsraili günahlandırır, sonra da üzr istəyir.

Qəribə məntiqdir: işğalçı ölkə cəbhədə məğlub olur, illərdir uydurduqları "güclü ordu" mifi darmadağın edilib, "taktiki geriçəkilmə" dedikləri qaçış getdikcə sürətlənir. Artıq məğlub olduğunu anlayan Nikol erməni ictimaiyyəti qarşısında indidən "sona qədər döyüşdük, amma qarşımızdakı Azərbaycan yox, Türkiyə idi, ona görə məğlub olduq" bəhanəsini hazırlayır.

Növbəti yalanları isə, İkincisi: beynəlxalq ictimaiyyətdə Azərbaycan və Türkiyə haqqında mənfi rəy yaratmaq, bölgədə "terrorçuların" olduğunu göstərərək, başqa ölkələrin müdaxiləsinə səbəb yaratmaq kimi fikirlər söyləyir. Ancaq hələ də bu məğlubiyyətdən sonra Paşinyan anlamır və anlamaq istəmir ki, indi orta əsrlər deyil, XXI yüzillikdir və istənilən ölkə hərbi-texniki imkanları çərçivəsində döyüş meydanında nə baş verdiyini asanlıqla müəyyənləşdirə bilər. Əslində, onun bu iddialarına heç bir ciddi reaksiyanın verilməməsinin səbəbi də budur: müraciət etdikləri ölkələr gerçəyin nə olduğunu bilirlər.

Ermənistan rəhbərliyinin fantaziyası isə tükənmək bilmir. Paşinyanın uydurduğu növbəti iddiasına diqqət edək: bu gün Vyanada terror aktı baş verdi, erməni baş nazir dərhal bunu Azərbaycana qarşı istifadə etməyə çalışdı. Guya Vyanadakı terrorla Qarabağ müharibəsi arasında nəsə əlaqə var. Yaxud Rossiya-1 kanalına müsahibəsində, Dağıstanda baş vermiş hansısa hadisəni terror adlandırır və Azərbaycanda "suriyalı yaraqlıların" olduğunu iddia edir, bu iki məsələni primitiv məntiqlə bir-birinə bağlayır, bu məntiqini orta statistik jurnalistdən də aşağı səviyyədə sübut etməyə çalışır. Bununla Rusiyaya hansısa "terror təhlükəsi" mesajını vermək istəyir, eyni mesajı İrana da ötürür. Bu azmış kimi, İsraili şeytanla əməkdaşlıqda ittiham edir.

Ən gülünc ondadır ki, Paşinyan İsraili terrora dəstəkdə ittiham edir, növbəti cümləsində Bakı və Ankaranın yəhudi dövlətinə qarşı "təhlükəli ittifaq"ndan danışır. Və hesab edir ki, hakimiyyətə gələndə Koçaryan-Sarkisyan xuntasından bezən erməni xalqını aldatdığı populist vədləri, çıxışları ilə beynəlxalq itimaiyyəti, dünya liderlərini də aldada bilər. Artıq qapısını döydüyü, hər gün uydurmaları ilə bezdirdiyi ölkələr və beynəlxalq ictimaiyyət Paşinyana siyasi təlxək kimi baxır. Çünki dünya da anlayır ki, canlı qüvvəsi, hərbi texnikası, maliyyə imkanları ilə Ermənistandan dəfələrlə güclü olan Azərbaycanın nə başqa ölkənin birbaşa dəstəyinə, nə də hansısa yaraqlılara ehtiyacı yoxdur. Paşinyanın dedikləri də siyasi təlxəyin uydurmaları kimi qəbul olunur.

Və hər kəsdə günah axtaran Paşinyan anlamır ki, ən böyük günahkar özü, rəhbərlik etdiyi hakimiyyət və dövlətinin işğalçılıq siyasətidir. O, dəfələrlə Azərbaycanın təkliflərini qulaq ardına vuranda, ölkəmizə qarşı saymazyana münasibət, təhqiramiz davranış sərgiləyəndə, 27 il ərzində danışıqlar prosesində əldə olunmuş müsbət dinamikanın üzərindən xətt çəkəndə bunun hansı acı nəticələrə gətirib çıxaracağını düşünməliydi. Düşünmədi, anlamadı və bunun acı nəticəsini görür. Uydurduğu yalanlar isə onun son çırpınışlarından başqa bir şey deyil. Bu adam artıq nə etdiyinin, hansı istiqamətdə siyasət yürütdüyünün fərqində deyil. Həm müharibəni açıq-açığına uduzur, həm ölkəsində daxili problemlər baş qaldırıb, həm də hər gün yeni absurd açıqlamalar, müsahibələr verərək özünü daha da bitirir. Heç Soros dayısı da Paşinyanın arxasında durmadı. İndi vəziyyət elədir ki, Paşinyan dizlərini yerə qoyub. Gah yalvarır, gah kiməsə zəng edir, gah da ittiham edir. Bu uğursuz məxluq anlamalıdır ki, Qarabağ Azərbaycanındır. Bu torpaqları biz erməni əsarətində qoymayacağıq. Artıq böyük qism ərazilərimiz işğaldan azad olunub. Proses davam edəcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Bu sərsəm iddialar isə Paşinyanı uçurumun bir addımlığına gətirib. Bir də siyasətdə təsadüfi adam olmağın, destruktiv siyasət yürütməyin, təlxəkliyin axırı, bax, budur.

## Paşinyanın isə çıxış yolu - layiq olmadığı oturduğu o kresloya əlvida deyib, gəldiyi yerə - küçəyə getməlidir

*RƏFİQƏ HÜSEYNOVA*

# "Bizim doğma torpağımız Zəngəzurdur, Göyçə mahalıdır, İrəvandır"



**"Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik, kiminsə siyasi maraqlarının girovuna çevirə bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib. Bu, yaxın tarixdir - 101 il bundan əvvəl". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğulamışdır.**

Tarixdən bizə məlumdur ki, son iki yüz il ərzində regionda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalıblar. Ermənilərin "tarixi əzəli torpaqları"nı yaratmaq siyasəti mərhələ-mərhələ həyata keçirilib. Əvvəlcə onlar Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan xanlığı ərazisində kiçik Ermənistan Respublikasını yaradıb, tədricən onun ərazisini böyüdüblər. Tarixdən bəllidir ki, İran və Rusiya arasında "Gülüstan", "Türkmənçay", Rusiya və Türkiyə arasında "Andrianopol" müqavilesi imzalandıqdan sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib. Torpaqları zəbt olunan azərbaycanlılar isə süni şəkildə qaçqın və məcburi köçkün vəziyyətinə salınıblar.

1918-ci il mayın 28-də müstəqilliyini bəyan edən Azərbaycan yenə də erməni millətçilərinin torpaq iddiaları ilə üz-üzə gəlir. Vaxtilə Rusiyanın tərkibinə Azərbaycan xanlığı kimi daxil olmuş İrəvan xanlığının ərazisində erməni dövləti yaratmaq ideyası ortaya atılır. Həmin dövrdə Azərbaycan siyasətçiləri tarixi şəraitə uyğun olaraq bir sıra güzəştlərə getməyə məcbur olurlar. Ermənipərəst qüvvələrin və millətçilərin yürütdükləri məkrli siyasət nəticəsində 1923-cü ildə Azərbaycanın az sayda ermənilərin yaşadığı ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılır. Bundan sonra azərbaycanlıların öz doğma ocaqlarından zorla qovulması və onlara qarşı etnik təmizləmə siyasətinin yeni mərhələsi başlanır. Nəticədə XX əsrin müxtəlif dövrlərində iki milyona yaxın soydaşımız öz tarixi torpaqlarından qovulur, etnik təmizləmə siyasətinin qurbanına çevrilərək didərgin salınırlar.

## ZƏNGƏZURDA 115 MÜSƏLMAN KƏNDİ YER ÜZÜNDƏN SİLİNİR

Azərbaycanın tarixi mahalı olan Zəngəzur da erməni işğalçılıq siyasətinin qurbanına çevrilir. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Muğru, Zəngilan, Qubadlı və Laçını əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk kəndi, 91 kürd kəndi və 81 erməni kəndi var idi. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib. Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon müsəlman həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olunmuşdu. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

## "AZƏRBAYCANIN ƏZƏLİ TORPAĞI OLAN ZƏNGƏZURU AZƏRBAYCANDAN AYIRIB ERMƏNİSTANA VERİLMƏSİ BÖYÜK ƏDALƏTSİZLİK İDİ"

Tarixi proseslərin davamı olaraq iyirminci əsrin sonunda 1988-ci ildən başlayaraq, Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə - indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib. Bu gün Ermənistan Respublikasının ərazisində qalan Zəngəzur tarixi Azərbaycan torpağıdır. Tarixi mənbələrdə, müxtəlif səyyahların yazılarında göstərilib ki, Zəngəzur türklərin qədim yurd yeri olub. Zəngəzurdakı türk mənşəli toponimik adların çoxluğu da bu fikri təsdiqləyir. Xalqımıza qarşı həyata keçirilən tarixi ədalətsizlik öz qiymətini alacaq. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində "Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana verilməsi böyük ədalətsizlik idi", - deyə bildirmişdir. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır, - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev Zəngəzurun tarixi dövrdəki əhalisinin mütləq əksəriyyətinin azərbaycanlılar olduğunu qeyd etmişdir. Təbii ki, mənbələrdə göstərildiyi kimi, Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları olub. Tarixi ədalətsizliyin sağalmayan yara olduğunu qeyd edən Cənab İlham Əliyev "vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq", - deyə əminliyini ifadə etmişdir. Artıq həmin zaman yetişib. "Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur - Şərqi və Qərbi Zəngəzur", deyən Azərbaycan Prezidenti bildirib ki, əgər Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var: "Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur".

## ERMƏNİSTANIN YERLƏŞDİYİ ƏRAZİ QƏDİM TÜRK, AZƏRBAYCAN TORPAQLARIDIR

Bizim əzəli torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar üzərində indi Ermənistan dövləti yaradılıb. Tarixi mənbələr də sübut edir ki, Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır və Azərbaycanın da tarixi həqiqəti bərpa etmək haqqıdır. Əlbəttə ki, belə bir zəngin tarixi olan Zəngəzurla bağlı cəfəng fikirlərin Ermənistanın baş naziri Paşinyan tərəfindən səsləndirilməsi heç bir məntiqə sığmır. Guya Zəngəzur dəhlizi və ya Şərqi Zəngəzur kimi terminləri Azərbaycan tərəfi uydurur və Ermənistana qarşı bununla bağlı ərazi iddiaları irəli sürür. Təbii ki, Azərbaycanın əsrlərə söykənən tarixi faktları kifayət qədərdir ki, hər bir ərazimizin coğrafi-tarixi mənbələrini əsaslandırmağa dəlillərimiz var. Utopik fikirlərlə yaşayan Ermənistan yenə də öz xülyalarından əl çəkməyərək, tarixi həqiqətləri qəbul etmir. Sanki düşüncələri ilə öz dünyalarında "Böyük Ermənistan" yaradırlar. Sənəd, tarix və faktlar bu "xalq"a yad olan məfhumlardır. Nə qədər belə yol getsələr də "DƏMİR YUMRUQ" onlara həqiqət yolunu göstərəcəkdir. Əgər bu ərazinin adı Zəngəzurdusa və Azərbaycan ərazisinə daxildirsə, ölkəmizin ayrılmaz hissəsidirsə, bunu necə saxtalaşdırmaq olar. Bu qeyri-mümkündür!

Cənab Prezident bildirib ki, indi bütün kommunikasiyalar açılandan sonra, əlbəttə, biz qayıdacağıq və Azərbaycan əhalisi öz dədə-baba torpaqlarına qayıdacaq: "Üçtərəfli 10 noyabr Bəyanatında göstərilir: Bütün qaçqınlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Bizim doğma torpağımız Zəngəzurdur, bizim doğma torpağımız Göyçə mahalıdır, İrəvandır. Biz qayıdacağıq, əlbəttə".

***Zümrüd BAYRAMOVA***



Elçin Bayramlı

# Kapitan Qrantın uşaqları

**Elmi fantastika janrının atası, ölməz yazıçı Jül Vernin "Kapitan Qrantın uşaqları" əsəri dünya macəra ədəbiyyatının şah əsəri sayılır. Bu əsəri oxumayan çətin tapılar. Amma mövzumuz onunla bağlı deyil. Biz tamam başqa Qrantın uşaqlarından danışmaq istəyirik. Bu Qrant həzrətləri ilə xalqımızın ilk tanışlığı Sovet İttifaqının dağılmasından sonra müstəqil respublika kimi yaşamağa çalışdığımız ilk dövrlərdən başlayır.**

İttifaqın dağılmasından sonra qlobal güclərin, böyük dövlətlərin keçmiş Sovet respublikalarına hücumu başladı. Respublikamızda saysız hesabsız siyasi partiyalar, dini icmalar, etnik birliklər və sair qeyri-hökumət təşkilatları... və sayı-hesabı bilinməyən media orqanları yaranmağa başladı.

Adam lap məəttəl qalırdı- kiçik bir respublikada bu qədər çox sayda mətbu orqan və ictimai təşkilat nəyə və kimə lazımdır? Ölkənin, xalqın maliyyə-iqtisadi vəziyyəti son dərəcə ağır olduğundan bu qədər təşkilatı, qəzeti, icmanı kimin maliyyələşdirdiyi sual doğururdu. Təsəvvür edin, ölkədə dini icmaların sayı 1000-i, siyasi partiyaların sayı 100-ü, qeyri-hökumət təşkilatlarının sayı 4000-i, media orqanlarının sayı isə 5000-i keçib. Bu, ilk baxışda demokratiyanın təntənəsi kimi görünə bilər. Amma alt qatlarda məsələ başqa cürdür.

Artıq 90-ların ortalarından çoxlarına aydın oldu ki, belə təşkilatların yaranması, cəmiyyətin monolit formasından çıxarılaraq saysız siyasi, dini, etnik qruplara bölünməsi hansı xarici mərkəzlərə və niyə sərf edirmiş, pullar haradan və necə gəlirmiş. Qrant adlandırılan bu çirkli pulları mədəni formalara salıb müxtəlif bəzəkli adlar altında ölkədəki qulbeçələrinə göndərirdilər. Nə bilim, demokratiyanin inkişafı naminə, vətəndaş cəmiyyəti uğrunda, hüquqi dövlətə doğru, qadın azadlığı, tolerantlıq mədəniyyəti və s. adlarla.

Ölkə boyu beynəlxalq təşkilatların seminar, treninq, konfrans və sair bu kimi tədbirlərinin sayı-hesabı itib. Belə tədbirlərə, əsasən, aktiv gənclər dəvət edilir və onların beyninin yuyulması üçün peşəkar əcnəbi mütəxəssislər təlim keçirdi. Hətta fərqlənənləri xarici səfərlərə aparıb orda Qərbin "demokratik", "zəngin" mənzərələrini onlara nümayiş etdirirdilər ki, "lazımi" təfəkkürə yiyələnsinlər. Buna xüsusi xidmət orqanlarında "verbovka" deyilir.

Amma gəlin görək, bu qrantları alan media və QHT-lər hansı layihələr həyata keçirir və bunların cəmiyyətə hansı faydaları olub? Gəlin görək, bu şəxslərin neçəsi xalqın problemlərini həll etmək üçün, cəmiyyəti obyektiv məlumatlandırma və maarifləndirmə üçün, mənəvi dəyərlərin və insan hüquqlarının qorunması üçün fəaliyyət göstərir. Çox az sayda olar.

İndi gələk politoloqlara, iqtisadçılara, ilahiyyatşünaslara, digər sahələrdə "müstəqil" ekspertlərə. Heç kim bilməsə də, jurnalistlər yaxşı bilir ki, hər hansı bir siyasi, iqtisadi, sosial, dini problemlərin araşdırılması üçün obyektiv ekspert tapıb rəy almaq necə müşküldür. Yeri gəlmişkən elə jurnalistlərin arasında da bu qrantlardan bəhrələnən xeyli-si var. Onların yazılarından bu cəmiyyətə hansı faydalar toxunur, burası aydın deyil.

Biri Amerikanın mənafeyindən çıxış edəcək, biri Avropanın, o biri İranın, digəri Rusiyanın... ya da biri adını müxalifət qoyaraq "qaraya da qara", "ağa da qara" deyəcək... Necə deyərlər, pulu kim verirsə, mahnını da o sifariş edir.

Yalnız intellektual şəxslər, alternativ mənbələrdən faktları əldə edib, analiz edə bilənlər obyektiv qənaət hasil edə bilirlər. Bəs sadə xalq kimə inansın? Eyni hadisə ilə bağlı 2 fərqli mövqenin hansının düzgün olduğuna necə qərar versin?

Nə qədər ki, hamı savadlı deyil, hamının alternativ mənbələrə çıxışı yoxdur, hamı analitik təfəkkürə malik deyil, kütləni istənilən yalana inandırmaq asandır. Necə ki, indi Qərbin nüfuz agentləri Qarabağ mövzusunda xalqa cəfəngiyyat danışır, qələbəmizə və bu istiqamətdə aparılan uğurlu siyasətə kölgə salmağa çalışırlar. Onlara inananlar çoxdur, çünki dediyimiz kimi savadlı və məntiqli adamlar azdır. Belə çıxır ki, problemin həlli yolu hamının savadlanmasından və analiz qabiliyyətinə malik olmasından keçir. Bu da çox çətin görünür. Bu səbəbdən də, hələ ki, Kapitan Qrantın uşaqları ictimai rəyi lazımi şəkildə yönləndirə bilirlər.

# Pulu əsasən nəyə xərcləyirik?



**Kimimiz maaş alırıq, kimimiz təqaüd. Bəs, pulu əsasən nəyə xərcləyirik? Məsələni araşdırmaq üçün paytaxt sakinləri arasında sorğu keçirdik. Sorğunu sizə təqdim edirik:**

**Paytaxt sakini İsmayıl Musayev:** ”Mən hazırda daha çox təhsilə pul xərcləndiyini düşünürəm.



Mən də pulu daha çox övladlarımın yaxşı təhsil almalarından ötrü xərcləyirəm. Onların daha savadlı yetişməsi üçün valideyn borcunu yerinə yetirirəm”.

**Paytaxt sakini Alsu Aşurova:**



”Mən tələbəyəm, daha çox kitaba, paltara pul xərcləyirəm. Tələbə yoldaşlarımla gəzintiyə və bu qəbildən şeylərə pul xərcləyirəm”

**Paytaxt sakini Əmin Əmizadə:** ”Mən futbolla məşğul oluram. Gələcəyim üçün hansısa yatırım etmirəm. Daha çox gündəlik tələ-



batlarıma pul xərcləyirəm. Maşın kimi əlavə xərc tələb edən vasitəm yoxdur. Ancaq öz günlük tələbatıma uyğun pul xərcləyirəm”.

**Paytaxt sakini İqor Qasımov:** ”Mən daha çox ərzağa pul xərcləyirəm. Orta statistik vətəndaşların



gəlirləri deyə bilərəm ki, əsasən kommunal xərclərə və yeyinti məhsullarına xərclənir. Daha yüksək gəlirli insanlar isə, əlbəttə ki, daha artıq şeylərə pul xərcləyə bilər”.

**Paytaxt sakini Toğrul Vəki-**



**lov:** ”Əlimizə pul düşəndə dostlarımızla birlikdə gəzirik. Restoran və kofelərdə yeyib içirik. Ailəmizə pul lazım olduqda onlara pul xərcləyirik. Daha çox özümüzün günlük həyatına yatırım edirik.

**Paytaxt sakini Adil Məmmə-**



**dov:** ”Daha çox mən gəzintiyə pul xərcləyirəm. Dost-tanışla gəzintiyə çıxırıq. Restoranda və kofedə yeyib-içirik. Yəni daha çox özüm üçün xərcləyirəm”.

**Paytaxt sakini Asiyə Kərimova:** ”Mən təqaüdçüyəm. Pulu daha çox özümə və nəvələrim üçün xərcləyirəm. Öz yeməyimə və əyinbaşıma xərcləyirəm. Yəni əlavə bir xərcim yoxdur”.

**Paytaxt sakini Cəmilə Atakişiyeva:** ”Düşünürəm ki, pul daha çox övladlarımızın təhsilinə xərclənir. Hər bir valideyn istəyir ki, onun



övladı yaxşı təhsil alsın və gələcəkdə çox yaxşı bir həyat qursun. Bunun üçün də uşaqların savadlı böyüdülməsi vacibdir”.

***Turqay Musayev***

# Yeni Azərbaycan Partiyası hər bir sınaqdan qalib çıxıb

## YAP Xətai rayon təşkilatı ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqları davam edir





Noyabrın 25-də YAP Xətai rayon təşkilatı Ramiz Quliyev küçəsi 4 və Nadir Mahmudov küçəsi 26 ünvanlarında yerləşən ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarını keçirib. Hesabat məruzələri dinlənilib, çıxışlar əsasında ərazi partiya təşkilatlarının hesabat dövründəki fəaliyyətləri qiymətləndirilib.

Yığıncaqlarda çıxış edən YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə bildirib ki, hər bir ölkənin inkişafında, tərəqqisində möhkəm təməl, düzgün müəyyənləşdirilən siyasət əsas rol oynayır: ”Azərbaycanın bugününü müstəqilliyini bərpa etdiyi ilk illərlə müqayisə etdikdə bunu aydın şəkildə görürük. O illərdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu, ən əsası şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmaları Azərbaycanı müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Lakin 1993-cü ildən sonra Azərbaycanın həyatında tamamilə fərqli bir dövr başladı. Vətənini, xalqını canından artıq sevən, daim Azəirbaycanı yüksəklərdə görmək istəyən ulu öndər Heydər Əliyev düşünülmüş və məqsədyönlü siyasəti ilə bugünkü Azərbaycanın əsasını qoydu. Son 18 ildə bu siyasət YAP-ın Sədri, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, Azərbaycan xalqı dünyanın xoşbəxt xalqları sırasında yer alır. Təbii ki, ölkəsinin gələcəyini düşünən Lideri olan xalq xoşbəxtdir. Bu gün böyük qürur hissi və fəxrlə qeyd edirik ki, ərazi bütövlüyümüzün bərpası Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik siyasətin şah əsəridir. Ölkənin aparıcı siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının hər bir üzvü bu uğurlara öz töhfəsini vermək üçün ciddi səylər göstərdi. Dövlət başçısı İlham Əliyev daim bu reallığı xüsusi qeyd edir ki, əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, rolu var. Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyalardan biridir.”

”Yeni Azərbaycan Partiyasının üzvlərinin say tərkibinə diqqət yetirsək onun böyük əksəriyyətini gənclər təşkil etdiyini görərik” söyləyən Vüqar Rəhimzadə qeyd edib ki, bu, YAP-ın gəncləşən partiya olduğunu bir daha təsdiqləyir: ”Azərbaycan gəncləri Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, Azərbaycanın uğurlu gələcəyi naminə üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışırlar. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz bunun təqdimatı oldu.”

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, 29 ilin təhlili bu fikrə də əsas verir ki, tarix bu partiyanı qələbələr qazanmaq üçün yaradıb. Ötən bu müddət ərzində YAP hər bir sınaqdan qalib çıxıb və özünü Azərbaycan xalqına qaliblər partiyası kimi tanıdıb.

Sonra hesabat seçki-yığıncaqlarında təşkilati məsələlərə baxılıb.

Anar Cavadov Ramiz Quliyev küçəsi 4 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Aygün Əliyeva sədr müavini, Naibə Məhərrəmova Nadir Mahmudov küçəsi 26 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Esmira Talıbova isə sədr müavini seçiliblər. YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə yeni tərkiblərə fəaliyyətlərində uğurlar arzulayıb.

# Forum Azərbaycanın özünü dünyaya təqdimi üçün unikal platformadır



“Nizami Gəncəvi Beynəlxalq Forumu bir çox mənada olduqca əhəmiyyətli platformadır. Nəzərə almaq lazımdır ki, bu forumun keçirildiyi gündən onun işində fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçıları, siyasi xadimlər, elm adamları, digər sahələrdə tanınmış insanlar iştirak edirlər. Diqqət yetirsək görərik ki, Nizami Gəncəvi Beynəlxalq forumu çərçivəsində, ümumiyyətlə, dünyanı narahat edən qlobal məsələlər müzakirə olunur. Təbii ki, qlobal məsələlərin həlli istiqamətində fərqli, rəngarəng yanaşmalardan çıxış olunaraq ən effektiv həll yolları müəyyənləşdirilir”. Bunu SİA-ya açıqlamasında deputat Elşad Mirbəşiroğlu deyib.

O, qeyd edib ki, ayrıca olaraq Azərbaycan üçün bu platformanın çox böyük əhəmiyyəti var. Belə ki, diqqət yetirsək görərik ki, ilk Nizami Gəncəvi Beynəlxalq Forumundan başlayaraq hər zaman Azərbaycan özünün mövqelərini dünyaya çatdırma istiqamətində münaqişənin mövcudluğu dövründə haqlı, ədalətli mövqelərini və məsələnin həlli ilə bağlı düşüncələrini dünyanın diqqətinə çatdırıb.

Bu barədə Elşad Mirbəşiroğlu fikirlərini belə izah edib: ”Təbii ki, bu platforma Azərbaycanın pozitiv imicinin daha da möhkəmləndirilməsində çox böyük təsiredici rol oynayıb. Bir sözlə qeyd etmək lazımdır ki, Nizami Gəncəvi Beynəlxalq Forumu Azərbaycanın özünü dünyaya təqdimi üçün unikal bir platformadır. Təbii ki, bu platformanın təşəbbüskarı və təşkilatçısı olmaqla Azərbaycan Respublikası həm də dünyanı narahat edən məsələlərin həlli istiqamətində dünya güclərinin, dünya zəkalarının imkanlarını səfərbər etmək şansını ortaya qoyur. Beləliklə, bu forum həm Azərbaycanın siyasi mövqelərinin güclənməsi istiqamətində, həm də beynəlxalq iqtisadi əməkdaşlıq imkanlarının genişləndirilməsi istiqamətində ölkəmiz üçün çox böyük rol oynamaqdadır”.

***Turqay Musayev***

# "COVID-19"-la mübarizədə vaksinasiya vacibdir

Artıq iki ilə yaxındır ki, Azərbaycanda yeni növ koronavirus "COVID-19" pandemiyası ilə mübarizə davam edir. Yeni növ koronavirus "COVID-19" pandemiyası bəşəriyyəti narahat edən məsələ olaraq təəssüflə bildirək ki, hələ də qalır və bütün dünya bu pandemiya ilə mübarizəyə silahlanıb. Amma bütün cəhdlərə baxmayaraq, hələ də dünyada virusdan əziyyət çəkən insanların sayı ürəkaçan deyil. Dünyanın bir parçası olan Azərbaycanda artıq bir neçə aydan sonra iki il olacaq ki, "COVID-19" pandemiyası baş qaldırıb. Ölkəmizdə dövlət səviyyəsində həyata keçirilən tədbirlər virusu minuma endirmək məqsədi daşısa da, hələ də bu virusa tam qalib gələ bilməmişik. Təbii ki, hər an bu xəstəliyə yoluxa biləcəyimizi düşünməliyik və bunun üçün istənilən yerdə tələb olunan əməllərə riayət etməyimiz vacib məsələdir. İlk günlərdən dövlət başçısının "Biz birlikdə güclüyük!" çağırışı pandemiyaya qarşı mübarizədə hər kəsi həmrəy olmağa səslədi və hər bir insanın tələb olunan qaydalara əməl etməsi onun vətəndaşlıq məsuliyyətidir. Əlbəttə ki, Azərbaycanda epidemiya daim nəzarət altındadır. Dövlətimiz tərəfindən mütəmadi olaraq reallaşan tədbirlər öz bəhrəsini verir. Ölkə Prezidenti İlham Əliyevin göstərişi əsasında Nazirlər Kabinetinin Sərəncamı ilə 2020-ci il 30 yanvar tarixində Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı təsdiq edildi. Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında Operativ Qərargah yaradıldı. Ölkəmizdə pandemiya ilə mübarizə üçün zəruri infrastruktur yaradılması, bütün texniki-təşkilati məsələlər uğurla həllini tapmış oldu.








Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri zamanı videoformatda çıxışı zamanı bildirdiyi kimi, "COVID-19 pandemiyası bütün dünya üçün ciddi çətinliklər doğurmaqda davam edir. Hökumətimiz ilk günlərdən əhalinin qorunması və pandemiyanın mənfi təsirinin minimuma endirilməsi məqsədilə mühüm və praktiki tədbirlər həyata keçirir".

Təbii ki, COVID-19-la mübarizədə qalib gəlmək üçün virus əleyhinə peyvəndlənmə vacibdir. Bildiyimiz kimi, vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılıb. Ölkəmizdə koronavirus əleyhinə vaksinasiya prosesi 2021-ci il yanvarın 18-də başlayıb. Bu proses 2021-2022-ci illər üçün təsdiqlənmiş Vaksinasiya Strategiyası çərçivəsində aparılır. Bu baxımdan, ölkəmizdə koronavirus əleyhinə peyvəndləmə prosesi uğurla davam etməkdədir. Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 10 milyon 363 min 317, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 5 milyon 59 min 543, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 4 milyon 538 min 992 nəfər, "buster" doza ilə peyvənd olunanların sayı 764 min 782 nəfər təşkil edir. Mütəxəssislərin qənaətinə görə, "Buster" dozanın əsas məqsədi orqanizmdə koronavirus əleyhinə yaranmış anticisim sintezini sürətləndirməkdir. Qüvvətləndirici doza qanda anticisimlərin yüksək səviyyədə qalmasına təminat verir. "Buster" doza xüsusilə xəstələnən zaman xəstəni kəskin ağırlaşmalardan qoruyur. Ona görə də risk qrupuna daxil olan vətəndaşların koronavirus əleyhinə "Buster" doza vurdurması mütəxəssislər tərəfindən tövsiyə edilir.

Qeyd edək ki, Azərbaycanda "COVID-19" infeksiyası əleyhinə "CoronoVac", "AstraZeneca", "Sputnik V" və "Pfizer/Biontech" peyvəndlərindən istifadə edilir. Azərbaycana hazırkı dövrə qədər ümumilikdə təkcə 319 min 410 doza "Pfizer/Biontech" vaksini idxal edilib. Hazırda ehtiyatda 162 min 450 doza "Pfizer/Biontech" vaksini var.

Bu rəqəmlər onu göstərir ki, ölkədə vaksinasiya prosesində aktivlik müşahidə olunur. Yeni növ koronavirus COVID-19 pandemiyası bəşəriyyəti narahat edən məsələ olaraq qalır. Koronavirusun dünyada vüsət almasını nəzərə alaraq hər kəs daha da məsuliyyətli olmalıdır. Heç şübhəsiz ki, vaksinasiya olunaraq və gigiyenik qaydalara əməl etməklə bu bəladan qorunmaq mümkündür. Əlbəttə ki, peyvənd vurdurduqdan sonra belə özünümühafizə qaydalarına əməl etmək lazımdır. Tibbi maskadan və dezinfeksiya məhlullarından istifadə etmək, sosial məsafəni qorumaq vacib şərtdir.

*Nəzakət ƏLƏDDİNQIZI*

## Əlilliklə bağlı pensiyalar artımla veriləcək

Yanvarın 1-dən artıq əlilliklə bağlı pensiyaların artımı icra olunacaqdır. Ümumiyyətlə isə 2 200-dən artıq vətən müharibəsi qazisinə pensiya təyin edilib və bu iş davam etdirilir. SİA-nın məlumatına görə, bunu Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev Zəfər Avtoyürüşü zamanı jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, müharibə əlillərinin və şəhid ailələrinin müdafiəsi hər zaman dövlətimizin sosial siyasətinin mərkəzində olub və onlara hər zaman diqqət qayğı göstərilib.



"Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyi olaraq bu kateqoriyaya aid olan vətəndaşlarımıza çox saylı sosial xidmətlər göstərilir. Təkcə bu il 33 min vətəndaşımız sosial xidmətlərdən yaralanıb. Bu Zəfər yürüyüşü də məhz Vətən müharibəsi əlillərinə verilən avtomobillərlə keçirildi. Bu il 150 avtomobil bu kateqoriyaya aid olan vətəndaşlarımıza təqdim edilib və proqram gələn ildə davam etdiriləcək",-deyə o bildirib

H.Abdullayev həmçinin qeyd edib ki, vətəndaşlarımıza göstərilən sosial xidmətlərin bir sahəsidə onların mənzil şəraitinin yaxşılaşdırılmasıdır. Bu ildə 3 min vətəndaşımız fərdi evlər və mənzillərlə təmin olunacaqdır. "Artıq 2 minə yaxın mənzil vətəndaşlarımıza təqdim edilib.Bundan əlavə əsas sosial dəstək layihələrinin biri də özünüməşğulluqdur. Bu il ərzində 5 500-ə yaxın qazi və şəhid ailələri özünüməşğulluq proqramına cəlb edilib",-deyə o bildirib.



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Paşinyanın yekəbaşlığı, Putinin qapazı və Əliyevin yumruğu

**Nikol Paşinyanın noyabrın 9-da Moskva görüşündən qaçması və üçtərəfli görüşün baş tutmamasına, daha dəqiq desək, ləğvinə səbəb olmasının ardınca, erməni baş nazirinin dekabrın 15-də Brüsseldə, ATƏT-in patronajlığı altında keçiriləcək görüşdə iştirak edəcəyini təsdiq etməsi istər-istəməz Kremlin qıcıqlanmasına səbəb oldu.**

Bakı isə əvvəldən bəyan edib ki, istənilən görüşlərə və danışıqlara hazırdır, bu xüsusda sərhədlərin delimitasiyası və demarkasiyasına, habelə, sülh sazişinin imzalanmasına, kommunikasiyaların açılmasına, blokadadan çıxarılma prosesinin sürətləndirilməsinə doğru istiqamət alıb.

Belə olan halda Moskvadakı dairələrin hələ oktyabr ayının sonlarından noyabrda mümkün üçtərəfli görüşün keçiriləcəyi ətrafında məlumatlar sızdırmaları, artıq həm Azərbaycanın, həm də Ermənistanın siyasi-ictimai rəyində hərəkətliliyə səbəb olmuşdu. Ancaq sonradan Nikolun növbəti cığallığı və prosesi yubatmağa çalışması, hətta buna müyəssər olması Moskvanın qəzəbinə səbəb oldu, xüsusilə, Brüssel görüşünün vaxtı və yeri tam dəqiqləşdirildikdən sonra. Amma söz yox ki, Vladimir Putin Moskvanın Brüsselllə əvəzlənməsini elə-belə, yəni boş buraxmayacaqdı və əvvəl-axır Nikolu öz qarşısında növbəti dəfə diz çökdürəcəkdi. Bu isə təbii ki, Soçi görüşüdür!

Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak edəcəyi bu görüşdə bir çox gündəmdə dayanan məsələlərin üçtərəfli və sonradan ayrı-ayrılıqda, yəni Rusiya prezidenti ilə ikitərəfli müzakirələri aparılacaq və əlbəttə ki, yalnız Putin deyil, elə Əliyev də Paşinyandan müəyyən və bəlli hesablarını sormalı olacaqlar - suallar, tələblər kifayət qədərdir zatən.

Lakin bəri başdan deyə bilərik ki, Brüssel görüşündən xeyli əvvələ və anidən təyin edilən Soçi görüşü, eyni zamanda, Qərbə, bəzi Avropa dairələrinə verilən siqnal idi ki, özünüzü heç də yormayın, regional məsələlərə yalnız regional ölkələr qarışır və müştərəf həll yolları tapılır. Bu da ki, öz yerində.

Amma keçək daha bir məsələyə, bu günlərdə, yəni Soçi görüşündən əvvəl Paşinyanın onlayn mətbuat konfransına və orada səsləndirdiyi fikirlərinə. Onun ifadələri artıq sübut edir ki, bu uğursuz kapitulyant, deyəsən, yenidən pipik çıxarmağa başlayıb və həmin pipiyi ilə təlxəklik, polyaçilik nümayiş etdirir. Misal üçün, Amerikadan dəvət aldığı və söz yox ki, Sorosun maliyyəsi, egidası altında baş tutacaq "Demokratiya sammitində" Azərbaycandan, hətta Rusiyadan şikayət edəcəyini gizlətməyib. Üstəlik, Azərbaycanı güc yoluna təhrik edə biləcək ifadələrini səsləndirib. Bəs hansılar idi bu ifadələr:

Misal üçün deyib ki, Qarabağ mövzusu yalnız ATƏT-in Minsk qrupu çərçivəsində müzakirə ediləcək (?!). Maraqlıdır, 30 ildir yeyib-içib, gəzib, tuluqlarını dolduran və sonra da bir-birlərini əvəzləyərək İrəvanın başına tumar çəkən bu mənasız qrup hələ də bizi aldadacağınımı sanır? Əbəs yerə, özü də Paşinyanla birlikdə!

Halbuki Azərbaycan, ümumiyyətlə, Qarabağ mövzusunu heç kimlə müzakirə etmir və yalnız öz haqlı şərtlərini qüvvədə saxlayır. Belə ki, Azərbaycanın suveren əraziləri siyasi alver predmeti deyil və olmayacaq. Qarabağ mövzusu regional çərçivəyə keçid alıb və bundan sonra ölü, lazımsız, məntiqsiz və ürəkbulandıran bir qurumun Qarabağ məsələsinə burun dürtməsinə, ümumiyyətlə, ehtiyac qalmayıb.

Daha bir fakt budur ki, Nikol üçtərəfli razılaşmanı icra etmir və əsasən, Azərbaycana təhlükəsiz və maneəsiz hərəkət etməsi üçün Bakıya dəhliz vermir. Özü də verərsə belə, yolların haradan keçəcəyini İrəvan müəyyən edəcəkmiş (?!) Deməzsən ki, aldatdım? Maraqlıdır, məğlub olan sən, diz çökən sən, demək olar ki, bütün dünya liderlərinə gecəgündüz telefon zəngləri edərək zəhlələrini aparan sən, indi də başında oturduğun İrəvan şərt irəli sürəcək? Yeri gəlmişkən, bu yerdə Paşinyanın gedəcəyi Amerikadan dünyaya yayılmış məşhur orta barmaq jestini göstərməyin tam yeridir!

Beləliklə, Soçi görüşünün vaxtının Brüssel görüşündən əvvələ salınmasının özü artıq belə qənaətə gəlməyə zəmin yaradır ki, Nikolun yekəbaşlığı onun növbəti qapazaltıya dönməsi ilə nəticəsini tapacaq. Putin qapazını ilişdirməyinə ilişdirəcək, amma Əliyevin yumruğu qalxarsa, bax onda...

ARAŞDIRMA

# Qadınlar kim üçün bəzənir?



**İngiltərədə aparılan araşdırma nəticəsində qadınların kişilərdən çox başqa qadınları təsirləndirmək üçün geyindiyi üzə çıxıb. Sorğuda iştirak edən 2000 qadının üçdə ikisi həmyaşıdlarından iltifat almaq üçün gözəl görünməyə çalışdıqlarını bildirib.**

Bir dəriyə qulluq şirkətinin sifarişi ilə keçirilən sorğunun nəticələrinə görə, 18-30 yaş arası hər on qadından altısının gecəyə hazırlaşmaq üçün paltar seçərkən ağlında sevgililəri deyil, rəfiqələri var.

Qadınların üçdə ikisi kişilərin ”gözəl görünürəm” deməsinin standart nümunə olduğuna inanır və bunu düşünmədən deyir. Qadınların 48 faizi əcnəbi qadından kompliment almağa üstünlük verəcəyini bildirsə də, yarısından çoxu heç vaxt sadəcə bir kişini heyran etmək üçün geyinmədiklərini, 22 faizi isə kişinin fikrinin onlar üçün az əhəmiyyət kəsb etdiyini bildirib.

Hər üç qadından ikisi dedi ki, rəfiqələri saçlarını və ya makiyajlarını dəyişdirərkən tərəfdaşlarından daha çox şərh verirlər. Amma bu iltifatlara baxmayaraq, qadınların dörddə biri bayıra çıxanda rəfiqələri ilə rəqabət apardıqlarını düşünür. Dörddə biri də etiraf edir ki, onlar kimi yaxşı görünmək üçün daim dostlarının üslubunu təqlid edirlər.

Qadınların öz bədənlərini qəbul etmə tərzi kişilərdən fərqlidir. Qadınlar başqası tərəfindən necə göründüklərinə çox əhəmiyyət verirlər. Məsələn, bir qadın kiminsə üzərində paltar görüb çox bəyəndiyi zaman eyni olmasa da, ona bənzər bir şey almaq istəyir. Bu, qadınlar arasında rəqabəti artırır. Bir insanın bir şey xoşuna gəlirsə, onu alır. Onun üçün başqa dostu olub-olmamasının fərqi yoxdur, bunu sorğu-sual etmir. Sosial mühitlərə baxdığımızda, peşəsindən asılı olmayaraq, qadınlar həmişə kimin nə geyindiyi barədə beş dəqiqə danışırlar. Bütün bu narahatlıqlara görə, qadın evdə geyinib hazırlaşarkən, həmkarlarının onlar haqqında nə düşünəcəyini və onun haqqında nə danışılacağını düşünür. Bir sözlə, qadınlar başqasının onları necə qəbul etdiyi ilə maraqlanır. Hər qadın üçün keçərli olmaya bilər, amma qadınlar arasında rəqabət hissi ümumiyyətlə çox yüksəkdir.

Kişilər arasında rəqabət olduğu kimi qadınlar da bu sahədə yarışır. Qadınlar geyinərkən kişilərin diqqətini cəlb etmək və həmyaşıdlarına ”mən səndən daha cəlbediciyəm, mən daha gözələm” demək və bu mesajı çatdırmaq üçün geyinirlər. Bəzi mədəniyyətlərdə, xüsusən də İngiltərədə qızlar qızlar, oğlanlar isə oğlanlar üçün məktəbə gedir və bu mədəniyyəti orada alırlar. İnsanlar ilk növbədə özləri üçün geyinirlər. Başqası üçün geyinmək mütləq ikinci plandadır. Məsələn, mən əvvəlcə özüm üçün geyinib seçim edirəm. Geyinərkən üstünlük verdiyim geyimlər də buna uyğundur. İnsanların öz kriteriyaları var. Məsələn, mənim bəyəndiyim çəkim, bəyəndiyim geyim tərzim və saç düzümüm var. Seçimlərimi buna uyğun edirəm. Sonra ikinci və ya üçüncü adamlar haqqında düşünə bilərsən, hamının bəyənməsini istəyirsən, amma dediyim kimi, birinci özüm. Ümumiyyətlə bu cür davranan qadınlara baxdığımızda sevgilisi olmayan, yalnız qadın dostları olan və hər zaman onlarla vaxt keçirən tiplərdir.

Qadınların yalnız kişiləri düşünərək və ya qadınları düşünərək geyindiyini söyləmək səhv olar. İlk növbədə özlərini yaxşı hiss etmək, güzgüyə baxanda gözəl görünmək, xoşbəxt olmaq üçün geyinirlər. Bunun səbəbi bəzən diqqət çəkmək istəmələridir, bəzən hətta normal dostları ilə vaxt keçirərkən belə, özlərini yaxşı hiss etmək üçün gözəl geyinməyə əhəmiyyət verirlər. Təbii ki, diqqət çəkmək də bunun bir hissəsi ola bilər, amma dediyim kimi, prioritet özünü yaxşı hiss etməkdir.



Mən şəxsən düşünmürəm ki, qadınlar sırf kişilərə gözəl görünmək üçün geyinirlər. Qadınlar ilk növbədə özləri üçün geyinirlər. Özünə hörmətdən, sevgidən ehtiyatlı geyinə bilərlər və bu təbiidir. Məncə bunu öz həmkarlarına qarşı bir şey kimi qəbul etmək düzgün deyil. Onların özlərinə hörmətindən, daha yaxşı hiss etmələrindən, prioritet qadının özüdür. Amma təbii ki, onların həmkarları ilə yarışı düşündükdə bu məsələnin ümumiyyətlə olmadığını deyə bilmərik. Zaman-zaman digər qadınlarla rəqabət aparırlar, bu, vazkeçilməzdir, ona görə də təbiətin qanunu budur.



SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq və stil üzrə məsləhətçilərin fikirlərini öyrənib. Görək həqiqətən də xanımlar özləri yoxsa əks cins üçün bəzənir?

**Psixoloq Zeynəb Eyyubova:**



”Belə bir deyim var ki, ”qadınlar əslində qadınlar üçün bəzənir”. Amma zahirdə isə kişilər üçün bəzəndiyini deyirlər. Hər qadının müxtəlif səbəbi ola bilər. Qadın var ki, həqiqətən özü üçün, özgüvənli olması üçün bəzənir. Bəzi qadınlar var ki, işləri üçün, sevdiyi şəxs üçün bəzənir. Yəni, hər qadının özünə aid yaşam səbəbi və stimulu var ki, bu da qadından qadına fərqlənir.

Bir neçə gözəllik agentlikləri və yaxud kosmetik şirkətlər testlər keçiriblər. Bu testlər nəticəsində məlum olub ki, qadınlar yanlarındakı bəylər üçün deyil, qadınlar üçün bəzənirlər. Yəni, bunu qadınların onları daha yaxşı görməsi üçün edirlər. Bunun da alt planında o dayanır ki, qadınlar həmişə mübarizə və müqayisə ruhunda olurlar”.

**Stil məsləhətçisi, geyim psixoloqu Rena Əliyeva isə fikirlərini bu cür ifadə edib:** ”Bu çox mübahisəyə açıq bir mövzudur. Düşünürəm ki, hər üç tip qadın mövcuddur:



1.Özü üçün geyinən
2.Digər qadınlar üçün geyinən
3.Kişilər üçün geyinən

Bu artıq xarakter və yaşam tərzi məsələsidir. Təbii ki, burada gördüyü iş, ətraf-mühit və xarakter böyük rol oynayır. Adətən özü üçün geyinən qadınlar ən sağlam özgüvənli və uğurlu qadınlar olur. Digər qadınlar üçün geyinənlər isə ya tamamilə qadına aid bir işlə məşğul olan insanlardır, ya da rəqabət hissi çox güclü olan qadınlardır. Kişilər üçün də geyinən qadınlar dişi və qadınlıq enerjiləri yüksək şəxslərdir.

Geyim psixoloqu kimi onu deyə bilərəm ki, ən sağlam nəticələri bir qadının özü üçün geyinməyi verir. Başqa bir kişi üçün geyindikdə bir müddət sonra qadın artıq özünü əksik hiss edir. Çünki, yanlız kişinin zövqünə uyğun olmağa çalışır və özündən, öz var oluşundan uzaqlaşır. Digər qadınlar üçün geyindikdə isə bəhsə-bəhs hissi baş qaldırır. Yəni, ”o alıb mən də alım” məsələsi olur.

Özü üçün bəzənən qadınlarda isə zaman keçdikcə, yaş artdıqca özünə olan hörməti və dəyəri itməmiş olur. Bəzi xanımlar ki, görürük həqiqətən kənardan baxdıqda zövqsüz kimi görünsə də bu qadınlar özləri üçün geyinən qadınlardır. Hər bir insan öz zövqü və istəkləri doğrultusunda geyindiyi zaman özünü daha xoşbəxt hiss edəcək”.



SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin də fikirlərini öyrənib:

**Şəhər sakini Zərintac Mayisqızı:** ”Məncə, cavab qadına görə dəyişir. Yəni, bir çox xanımlar sadəcə həyat yoldaşlarına görə bəzənir. Onu maraqlandıran həyat yoldaşına gözəl görünməkdir. Lakin, digərləri isə özü üçün, bəzənməyi sevdiyi üçün və istədiyi kimi bəzənir. Belə bir kateqoriya da var: Ümumiyyətlə cəmiyyətdə gözəl görünmək üçün, yəni, işdə, gəzməyə gedəndə və s. bəzənir.

Sonda, bunları qeyd etmək istərdim ki, xanımlar özləri necə istəyirlərsə, elə də etsinlər yəni istəsələr bəzənərlər, istəməsələr də yox. Bu insan xarakterinə görə dəyişir. Baxımlı olmağı isə ümumiyyətlə hər bir xanıma məsləhət görürəm. Çünki gözəl olmayan qadın yoxdu özünə lazımi qədər diqqət göstərməyən xanım var.

Şəxsi fikrimi də qeyd edim ki, xanımlar kiməsə gözəl görünmək üçün yox özləri üçün, özlərini necə görmək istəyirlərsə elə də bəzəsinlər. Yəni, qadınlar seçim etməkdə azaddır”.

**Şəhər sakini Fatimə Əzizli:** ”Qadınlar xoşbəxt olmaq üçün, özləri üçün bəzənirlər. Mən hər zaman deyirəm ki, bəzənirəm və özümü sevgi dolu hiss edirəm. Güzgüdəki əksim mənə göz qırpır. İnsanlara, ətrafa görə hazırlaşmıram özgüvənimi yeniləmək, geyinmək, xoş ətir istifadə etmək zövq verir. Qadınlar qarşı cinsə deyil, öz həmcinslərindən üstün olmaq üçün şarmlı olmağa üstünlük verirlər”.

**Şəhər sakini Aysun Əliyeva:** ”Bəzənmək qadınların təbiətində var. Kosmetika, zinət əşyaları, gözəl geyimlər məhz qadınlar üçün yaradılıb. Ona görə də bunlardan istifadə edən qadınları kim üçünsə edib deyərək qınamaq ağılsızlıqdı. Qadın gözəl geyindikdə, gözəl makyaj etdikdə özünü daha gümrah hiss edir. Elə buna görə də bəzənirlər. Bəzənirlər ki, güzgüdə ideal, özgüvənli qadın görsünlər. Baxımsız, bəzək-düzəksiz qadının solmuş güldən fərqi yoxdur”.

**Şəhər sakini Gülnar Əliyeva:** ”İstər qadın, istərsə də kişi fərqi yoxdur. İnsan özü üçün, öz təmizliyi üçün baxımlı və gözəl olmalıdır. Lakin hər qadın fərqlidir. Kimi əri, kimi sevgilisi üçün bəzənir. Bəzənmək dedikdə yanlız makiyaj nəzərdə tutulmur. Buraya həm də dırnaq, saç, üz və bədən baxımı da daxildir”.

**Şəhər sakini Ülkər Xəlilli:** ”Qadınlar məncə özləri üçün bəzənir. Kimin üçünsə bəzəndiklərini düşünmürəm. Bəzənərkən özlərini xoşbəxt, güclü və daha gözəl hiss edirlər. Çünki insan özü-özünə xoş görünürsə, qırağdakı heç bir insanın fikri, görüşü, düşüncəsi onun üçün önəmli deyil”.

**Şəhər sakini Röya Zeynalova:** ”Əks tərəflər qadınların onlar üçün bəzəndiyini düşünsə də, qadınlar əslində, özləri üçün bəzənərlər. Bu, sırf qadınların özlərini motivasiya etmək üsuludur. Olduğu mühitdə gözəl olmaq qadınlar üçün özgüvən yaradır. Bu, heç kimdən asılı bir hal deyil”.



***Ayşən Vəli***

# “Kəlbəcərin işğaldan azad edilməsi böyük tarixi uğurdur”

**“Kəlbəcər kimi strateji əhəmiyyəti olan rayonun işğaldan azad edilməsi son dərəcə böyük tarixi uğurdur”. Bu sözləri Kəlbəcərin işğaldan azad olunması ilə bağlı SİA-ya verdiyi açıqlamasında politoloq Yusif Bağırzadə deyib. Politoloq qeyd edib ki, 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanatın nəticəsi olaraq Kəlbəcər rayonu işğaldan azad olundu.**




”Məlum olduğu kimi Kəlbəcər rayonunun işğaldan azad olunması noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir. Bəyanata əsasən, Ermənistan Kəlbəcər rayonunu noyabrın 15-də boşaltmalı və ərazini tam olaraq Azərbaycana təhvil verməli idi. Lakin bu, 15 noyabrda reallaşmadı. Ermənistan vaxtın azlığını və relyefin çətinliyini əsas göstərərək noyabrın 25-dək vaxt istədi. Azərbaycan tərəfi Rusiya tərəfindən çatdırılan bu xahişi qəbul etdi. Beləliklə, Kəlbəcər rayonu noyabrın 25-də Azərbaycana təhvil verildi. Azərbaycan Ordusu 25 noyabrın ilk dəqiqəsindən Kəlbəcərə daxil oldu. Bununla da 27 ildən artıq davam edən işğal başa çatdı.

Azərbaycan Kəlbəcər rayonunu hərbi əməliyyat keçirmədən, siyasi yolla işğaldan azad edərək öz yurisdiksiyasına qaytardı ki, bu da olduqca böyük uğurdur və tarixi bir hadisədir. Bu gün yaşadığımız günlər, yaşadığımız anlar hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Fürsətdən istifadə edərək bütün Kəlbəcərliləri və xalqımızı bu tarixi gün münasibətilə təbrik edirəm.

Kəlbəcərin işğal tarixinə baxsaq görərik ki, rayon ”Dağlıq Qarabağ” müharibəsi başlayandan iki tərəfdən mühasirədə idi. 1992-ci ildə Laçının işğalından sonra Kəlbəcərin daha bir tərəfi bağlandı və rayon 3 tərəfdən düşmən mühasirəsində qalmışdı. Kəlbəcərin Azərbaycanın digər bölgələri ilə əlaqəsi yalnız 3700 metr hündürlükdə olan Murov dağı vasitəsilə həyata keçirilirdi. Ermənistan silahlı qüvvələri Kəlbəcərin mühasirədə qalmasından yararlanaraq 1993-cü il aprelin 2-də oranı işğal etdilər. İşğal nəticəsində 511 dinc sakin öldürülüb, 321 adam əsir götürülüb və itkin düşüb, həmçinin Kəlbəcərin 60 min nəfər əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmağa məcbur olub. İşğal nəticəsində onlarla tarixi-mədəniyyət abidəsi, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100-lərlə maşın, texnika və s. talan edilmiş, dağıdılmış və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınıb. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanmışdı.

Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul etdi. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunurdu. Lakin rəsmi İrəvan həmin Qətnaməni icra etmədi, beynəlxalq təşkilatlar isə ənənəvi olaraq ikili siyasət yürütməkdə davam edərək Ermənistandan onun icrasını tələb etmədi. Bununla da 27 ildən artıq müddətdə BMT qətanmələri kağız üzərində qaldı. Nəhayət Azərbaycan xalqı özü beynəlxalq qanunların aliliyini və tarixi ədaləti bərpa etdi. 27 sentyabr 2020-ci ildə başlanan Vətən savaşında Azərbaycan Ordusu Ermənistan ordusunu diz çökdürdü və bununla həm də faktiki olaraq BMT qətnaməsinin tələbini reallaşdırmış oldu.

Ermənistanla böyük sərhəddə malik olan Kəlbəcər Azərbaycan üçün çox ciddi strateji əhəmiyyət daşıyır. İşğal zamanı ermənilər məhz belə bir strateji üstünlük əldə etdikdən sonra çox keçmədi ki, qısa zamanda Azərbaycanın daha beş rayonunu işğal etdilər. Odur ki, Kəlbəcər kimi belə bir strateji əhəmiyyəti olan rayonun işğaldan azad edilməsi son dərəcə böyük tarixi uğurdur. Cənab Prezident də öz çıxışlarında Kəlbəcərin strateji əhəmiyyəti haqqında danışarkən bildirmişdi ki, Kəlbəcər kimi strateji yüksəkliklərin götürülməsi ermənilərin istifadə etdikləri nəqliyyat-kommunikasiya infrastrukturuna nəzarət etməyə imkan verdi. Bu mənada Ali Baş Komandanın fikirləri Kəlbəcərin strateji əhəmiyyəti haqqında doğlğun təsəvvür yaratmağa tam imkan verir: ”İkinci Qarabağ müharibəsinin ilk günlərində döyüşlər gedən zaman Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edilmişdir. Biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçər-Kəlbəcər yolundan istifadə edə bilmədilər. Bəzi istiqamətlərdə strateji nöqtələri götürərək Ermənistan ordusunun hərəkətlərini demək olar ki, iflic vəziyyətə salmışdıq”.

Kəlbəcər Azərbaycan iqtisadiyyatına çox böyük gəlirlər vermək imkanlarına malikdir. Kəlbəcərin azad olunmasından cəmi 1 il keçib, artıq rayonda quruculuq işləri, infrastruktrun qurulması istiqamətində çox ciddi layihələr gerçkləşdirilib və sürətli iş gedir. Avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunmuş Kəlbəcər rayonunda səfərdə oldular. Cənab Prezident İlham Əliyev Kəlbəcərdə Azərbaycan bayrağını qaldırdı. Kəlbəcər rayonunda bərpa-quruculuq işlərinə artıq rəsmi start verildi. 16 avqustda dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq 11,6 kilometrlik tunelin təməli qoyuldu. Beləliklə, Göygöl və Kəlbəcər rayonlarını yeni yol birləşdirəcək. Tunelin müəyyən hissəsi qısa müddətdə açılıb və hazırda sürətli iş gedir. Prezidentin səfərində 110/35/10 kilovoltluq ”Kəlbəcər” yarımstansiyasının açılışı edilib. Səfər çərçivəsində Kəlbəcər-Laçın avtomobil yolu üzərində inşa olunacaq tunelin də təməli qoyulub. Bütün bunlara və gələcəkdə də görüləcək işlərin miqyasına baxdıqda tam əminliklə söyləmək olar ki, tezliklə Kəlbəcər də tam inkişaf etmiş rayonlarımızdan birinə çevriləcək.

Heç şübhəsiz ki, bu gün haqqında danışarkən torpaqlarımızın işğaldan azad edilməsində canlarını fəda etmiş şəhidlərimizi və qəhrəman əsgər və zabitlərimizi də yad etməliyik. Məhz onların fədakarlığı və qətiyyətinin nəticəsidir ki, bu gün 30 ilə yaxın dövr ərzində düşmən tapdağı altında olan torpaqlarımız işğaldan azad edilib. Təbii olaraq dövlətimiz də onların bu fədakarlıqlarını unutmur. 2020-ci il noyabrın 26-da ”Kəlbəcərin azad olunmasına görə” medalı təsis edilib. Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin sərəncamları ilə Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 9424 hərbi qulluqçusu ”Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif olunub. Bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm”, deyə politoloq Yusif Bağırzadə bildirib.

***İnam Hacıyev***

# “Əli Kərimli “şanlı hakimiyyətlərini” xatırlayıb, onları tənqid etməlidir”



“AXCP sədri Əli Kərimli Ermənistanın sərhəddə törətdiyi təxribatlara layiqli cavab verməyimizi Rusiyanın maraqlarına xidmət etmək kimi qiymətləndirərək belə bir ”dahiyanə” nəticə çıxarıb ki, ordumuzun ”məlum sərhədləri” pozması şimal qonşumuzun Ermənistanda və sərhəddə möhkəmlənməsinə gətirib çıxarır. Bu səbəbdən biz erməni təxribatlarına cavab verərək yeni postlar ələ keçirmək yerinə, durub delimitasiya prosesinin başlanmasını və ”halal torpaqlarımızın” özümüzə qaytarılmasını gözləməliyik. Birincisi, sərhədlərin məlum olması barədə iddia çox təəccüb doğurur. Biz elə bilirik ki, ermənilərin ”fəaliyyəti” nəticəsində bu gün sərhədlərin haradan keçdiyi nə biz, nə də daha yüksək ranqlı dövlət rəsmilərinə məlum deyil. Elə delimitasiyanı zəruri edən də, bu prosesi pozmaq, ləngitmək üçün hər cür təxribata əl atan ermənilərə ”dərs vermək” zərurətini gündəliyə gətirən də məhz bu vəziyyətdir”. Bunu ”Səs” qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, Azərbaycan-Ermənistan sərhədinin hardan keçdiyi bir Rusiya Müdafiə nazirliyinin Baş Qərargahında işləyən yüksək vəzifəli şəxslərə, bir də onlarla yaxın əlaqədə olanlara məlumdur: ”Əli Kərimli bu adamların arasına necə düşüb ki, bu qədər əminliklə ”məlum sərhədlər” ifadəsini işlədə bilir. Qətiyyən aydın deyil. İkincisi, Rusiyanın Ermənistanda möhkəmlənməsinə Azərbaycanın hərbi uğurlarının təsir etməsi iddiası son dərəcə mənasız və yanlışdır. Bu məntiqlə Əli Kərimli öz ”şanlı hakimiyyətlərini” xatırlayıb, ilk növbədə onları tənqid etməlidir. Çünki, məhz həmin hakimiyyət heç bir ciddi hazırlıq olmadan, Gəncədəki rus desant diviziyasının yardımına ümid edib, 12 iyun 1992-ci ildə hücum əməliyyatlarına başladı və nəticədə Azərbaycanı son dərəcə ağır duruma saldı. Sonradan AXC hakimiyyətinin Xarici İşlər naziri Tofiq Qasımov bu əməliyyatı ABŞ-ın Dövlət katibi C.Beykerin Qarabağ məsələsi ilə bağlı planını pozmağa yönəldilmiş ”təxribat” adlandırdı.

Prezident Ə.Elçibəy isə 1993-cü ilin fevralında ruslara və onun Azərbaycandakı əlaltılarına ümid etməyin yanlış olduğunu anladı və qəti şəkildə bəyan etdi ki, ”daha ruslarla iş görməyəcək!”. Yanlış addımları ilə 30 ilə yaxın müddətdə xalqımıza fəlakətlər yaşadan bir hakimiyyətin Dövlət katibi olmuş Ə.Kərimli indi torpaqları erməni işğalından azad etmiş bir hakimiyyətə irad tutur ki, siz ermənilərə ”həddini göstərməklə” rusların Ermənistanda və sərhəddə möhkəmlənməsinə xidmət göstərirsini”.

A.Səmədov bildirib ki, bizim ordumuzun ”zəfər yürüşü” erməniləri vadar edir ki, öz ərazilərində ikinci rus bazasını, sərhəddə isə rus əsgərlərini yerləşdirsinlər”Bu ”müdrik” iddiaları irəli sürən Ə.Kərimli özünə sual vermir ki, bəs, birinci rus bazasının yaranmasına, Ermənistan sərhədlərin qorunmasını ruslara tapşırmağa erməniləri kim məcbur etdi? Necə oldu ki, baltik respublikaları, Ukrayna və Gürcüstanla yanaşı SSRİ-nin saxlanması barədə referendumda iştirak etməyən, Moskvanı qıcıqlandıran addımlar atmaqdan çəkinməyən Ermənistan öz ərazisində rus hərbi bazasını yerləşdirməyə (21 avqust 1992-ci il) və sərhədlərini ruslara tapşırmağa (30 sentyabr 1992-ci il) gətirib çıxaran sənədləri imzalamağa məcbur oldu?

Bu tarixləri ona görə xatırladıram ki, öz avantürist addımlarınızla ruslari regiona necə gətirdiyinizi yada salasınız və birillik hakimiyyətiniz dövründə Azərbaycana vurduğunuz yaralardan bəlkə utanasınız, xəcalət çəkəcəksiniz? Ancaq əminəm ki, bu addımı atmayacaqsınız və S.Vurğunun ”sözdən qızarmaz ki, bozarmış üzlər!” - kəlamını söyləməkdə nə qədər haqlı olduğunu bundan sonra da öz davranışınızla dəfələrlə təsdiq edəcəksiniz”.

***Gülyana***

# Vasitəçi

## tərəfsiz və ədalətli olmalıdır



Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məqsədilə təsis edilən ATƏT-in Minsk Qrupu yarandığı gündən münaqişənin həlli yolunda heç bir səmərəli təşəbbüs göstərmədi. Azərbaycan bu 28 illər ərzində ATƏT-in Minsk Qrupunun həmsədrlərindən ədalətli mövqe, işğalçıya təsir və təzyiq, işğala son qoyulması üçün əməli fəaliyyət gözlədi. Amma bunların nəinki heç biri olmadı, hətta Ermənistana BMT qətnamələrinin yerinə yetirilməsi ilə bağlı azacıq da olsa, beynəlxalq təzyiq belə göstərilmədi. Həmsədrlər Ermənistana təzyiq göstərmək, beynəlxalq hüquqdan irəli gələn müvafiq sanksiya rejimlərini tətbiq etmək əvəzinə, faktiki olaraq Ermənistanın işğalçılıq siyasətinə göz yumdular. ATƏT-in Minsk qrupu 28 il ərzində münaqişənin hərbi həll yolunu inkar edərək Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaradılmış status-kvonu Azərbaycana qəbul etdirməyə və münaqişəni diplomatik-siyasi yollarla nizamlamağa uğursuz cəhdlər etmişdi. Nəticədə, etimadı itirən bu qurumun fəaliyyətsizliyi problemin sülh yolu ilə deyil, hərbi əməliyyatlarla həllinə gətirib çıxardı. Və 44 günlük Vətən müharibəsində ərazilərimizin işğaldan azad olunması uğrunda apardığımız mübarizə bütün beynəlxalq qanunlara görə ədalətli olmaqla, dünya erməniliyinə, erməni təəssübkeşliyinə böyük zərbə oldu. Prezident İlham Əliyev bu qələbənin müəllifi kimi torpaqlarımızı işğaldan məhz "Dəmir yumruq" siyasəti yolu ilə azad edərək Ermənistanın müdafiəsinə qalxmış dövlətlərə və siyasi mərkəzlərə öz yerlərini göstərdi. Beləliklə, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini, ATƏT-in qərarlarını yerinə yetirməklə 30 ilə yaxın idi ki, təhdid mənbəyi olan münaqişəyə 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan, Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasəti ilə Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayaraq 44 gün ərzində işğal altındakı torpaqları azad etdi, ərazi bütövlüyünü təmin etdi.

**"Vasitəçilər vəziyyətlə bağlı necə fikirdə olmaqlarından, bizimlə və ya Ermənistanla əlaqələrinin nə dərəcədə yaxın olmağından asılı olmayaraq neytral olmalıdırlar"**

Prezident İlham Əliyev İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirmişdir ki, ATƏT-in Minsk Qruppu fəaliyyətə başladığı andan hər zaman Azərbaycanın əleyhinə olub: "Yəni onların əvvəldən fəaliyyəti, mövqeyi bu gün də daxil olmaqla hər zaman bizim əleyhimizə olub. Hesab edirəm ki, gələcəkdə də belə olacaq, heç bir dəyişiklik edilməyəcək. Buna görə Ermənistanla bizim aramızda təxribatlar, gərginliklər, anlaşmazlıqlar, ümumiyyətlə, hər hansı bir problemlər baş verdikdə Azərbaycan bu məsələləri özü yoluna qoyur, özü də həll edir. Bizə ATƏT-in Minsk qrupu kimi vasitəçi lazım deyil. Çünki onların mövqeyi ortadadır. Fransanın bu günlərdə özlərini dövlət adamları kimi adlandıran separatçı qurumun iki cinayətkarını yüksək səviyyədə qəbul etməsi, onlarla görüşlər keçirməsi, bəyanatların verilməsi, yəni bu Fransanın mövqeyi deyilmi? Təbii ki, mövqeyidir. Bu 44 günlük müharibə dövründə Fransa və onun prezidenti Emmanuel Makron ermənilərdən çox erməni-lik edirdi. Bu gün də həmin mövqeyi davam etdirirlər. Ona görə də bizə Fransa kimi həmsədr lazım deyil. Ümumiyyətlə, ATƏT-in Minsk Qrupu kimi həmsədrlik edən qurum lazım deyil. Biz torpaqlarımızı işğaldan azad etmişik, qalan digər problemlərimizi də tədricən həll edəcəyik".

Bəli, dövlət başçısı onu da bildirib ki, Prezidenti İlham Əliyev müsahibələrində dəfələrlə vurğulayıb ki, vasitəçi tərəfsiz və ədalətli olmalıdır: "Vasitəçilər vəziyyətlə bağlı necə fikirdə olmaqlarından, bizimlə və ya Ermənistanla əlaqələrinin nə dərəcədə yaxın olmağından asılı olmayaraq neytral olmalıdırlar".

**"Artıq münaqişə tarixdə qalıbdı. İndi isə yeni dövr başlayıb - quruculuq dövrü, bərpa dövrü"**

Bu günlərdə Prezident İlham Əliyev BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edərkən dövlət başçımız bir daha Ermənistanla aparılan əvvəlki danışıqlardan söz açaraq dedi ki, BMT TŞ-nin daimi üzvü olan beş ölkədən üçünün ATƏT-in Minsk qrupuna həmsədrlik etməsinə baxmayaraq, 28 il ərzində lazımi imkanlar çərçivəsində heç bir əməli iş görülmədi: "Odur ki, müharibəyə görə məsuliyyət yalnız Ermənistanın yox, onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin üzərinə düşür. Çünki Ermənistana qarşı vaxtında sanksiyalar tətbiq edilsəydi, Minsk qrupunun həmsədrləri Ermənistanı öz işğalçı qüvvələrini geri çəkməyə məcbur etsəydi, müharibə baş verməzdi. Lakin Dağlıq Qarabağ münaqişəsi artıq həll olunub, Azərbaycan bunu həll edib və 30 ilə yaxın kağız üzərində olan qətnamələri yerinə yetirib və artıq münaqişə tarixdə qalıbdı. İndi isə yeni dövr başlayıb - quruculuq dövrü, bərpa dövrü". Bəli, artıq müharibə bitib, münaqişə həll olunub, bu baş verənlər haqda danışılası heç bir məsələ qalmayıb. Artıq Azərbaycanın həyatında yeni dövr - quruculuq, torpaqlarımızın bərpası dövrü başlanıb. 30 ilə yaxın dövrün işğalının Ermənistana nə verdiyini yalnız və yalnız bir sözlə ifadə edə bilərik ki, uğursuzluq. Ermənistan Azərbaycanla eyni vaxtda müstəqillik qazansa da, işğalçı dövlət formal müstəqilliyi ilə diqqət çəkib. Asılı vəziyyətdə yaşayan bir ölkənin güclü iqtisadiyyatdan, ordudan danışması qeyri-mümkündür. İkinci Qarabağ müharibəsində Zəfərimiz Azərbaycanın qarşısında böyük imkanlar açıb. Və bu gün Ermənistanın müdafiəsinə qalxan, erməni lobbisinin əlində alətə çevrilən dövlətlər və siyasi mərkəzlər yaxşı anlayırlar ki, status məsələsini ortaya atmaqla Azərbaycana təsir edə bilmələri qeyri-mümkündür.

Prezident İlham Əliyev ATƏT sədri Ann Linde ilə görüşdə bir daha Ermənistanla aparılan əvvəlki danışıqlardan söz açaraq dedi ki, bu proses artıq tarixə qovuşub. Kommunikasiyaların açılması ilə bağlı danışıqların müxtəlif səviyyələrdə bir neçə mərhələsi baş tutub. Məhz yeni kommnukasiyaların açılması məsələsi müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər. Çünki kommunikasiyaların açılması bütün region ölkələrinin xeyrinə olacaq, regional əməkdaşlığa yeni dinamika gətirməklə yeni imkanlar yaradacaq.

Azərbaycan Prezidentinin söylədiyi kimi, bu da bir çox başqa sahələrdə potensial əməkdaşlığa gətirib çıxara bilər. Azərbaycan buna hazırdır: "Biz öz vəzifəmizi tamamlamışıq. Əraziləri azad etmişik, BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT-in qərarlarını icra etmişik. Beləliklə, indi biz diqqəti gələcəyə cəmləşdirməliyik".

Prezident İlham Əliyev ATƏT sədrinin diqqətinə çatdıraraq bildirib ki, Azərbaycan artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlayıb. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb: "Həqiqətən də, işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur. Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq. Bu, noyabrın 10-da imzalanmış Bəyanatın bir hissəsidir".

ATƏT sədri Ann Linde isə bildirib ki, ATƏT-in əsas prioriteti Avropada təhlükəsizlik sistemini müdafiə etmək və təhlükəsizliyi demokratiyaya, insan hüquqlarına və qanunun aliliyinə bağlayan hərtərəfli konsepsiyaya dəstək olmaqdır. ATƏT münaqişənin həllinə töhfə vermək üçün əlində olan imkanları bir daha nəzərdən keçirəcək. Odur ki, bu kontekstdə, əlbəttə, beynəlxalq hüquq, beynəlxalq insan hüquqları, humanitar qanun, qadınlar, sülh və təhlükəsizlik bizim üçün prioritet məsələlərdir. Bu məsələlər üzərində birlikdə çalışmaq mümkündür.

Göründüyü kimi, Azərbaycanın ATƏT-lə münasibətlərində yeni mərhələ başlayır. Prezident bir daha bəyan etdi ki, hər zaman öz prinsiplərinə sadiq qalan Azərbaycan bundan sonra da bu siyasətini davam etdirəcək. Bu da ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcək.

Göründüyü kimi, artıq Minsk qrupu və onun həmsədrlərinin addımları məşhur el məsəlimizdə deyildiyi kimi, "öz cəzandır, çək!". Bizim artıq nə danışıqlara, nə Minsk Qrupuna, nə də həmsədrlərə ehtiyacımız var. Bizim öz tənzimləyicimiz - "dəmir yumruğumuz" var. Necə ki, 44 gündə də bu yumruq öz tarixi missiyasını layiqincə yerinə yetirdi... Ədalət Zəfər çaldı. Ermənistan da, onun yanında duranlar da layiqli cavablarını aldılar. Prezident İlham Əliyevin sözləri ilə desək: "Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox!...Bu, reallıqdır..."

Bir sözlə, həqiqət budur ki, indiki şəraitdə bizim ATƏT-in Minsk Qrupuna ehtiyacımız yoxdur. Ümumiyyətlə, ATƏT-in Minsk Qrupu kimi həmsədrlik edən qurum lazım deyil. Biz torpaqlarımızı işğaldan azad etmişik, qalan digər problemlərimizi də tədricən həll edəcəyik.

**RƏFİQƏ HÜSEYNOVA**

# Saxta məlumat

## yayanlara qarşı mübarizə

### NECƏ TƏŞKİL OLUNMALIDIR?

**"Sosial şəbəkələr artıq 20 ilə yaxın müddətdir ki, gündəmdədir və formalaşdırırlar. Azərbaycanda da sosial şəbəkələrin çox böyük istifadəçi auditoriyası var. Onların sayı artıq 3 milyon nəfər civarındadır". Bu sözləri SİA-ya açıqlamasında Mətbuat Şurası sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli deyib.**



"Bu keçən müddət imkan verib ki, insanlar sosial şəbəkələrdən hansı məqsədlərlə istifadə etdiyini bilsinlər. Eyni zamanda, han-



sı informasiyaların yayılmasına qanunlarla məhdudiyyət qoyulduğu barədə məlumatlı olsunlar. Bu barədə qanunvericiliyimizdə kifayət qədər müddəalar mövcuddur. Eyni zamanda, mövzu üzrə Azərbaycanda kifayət qədər maarifləndirmə işləri aparılıb. Yəni, yaxın 20 il müddətində aparılan maarifləndirmə işi, qanunvericilik haqqında bilgiləndirmə imkan verir ki, sosial şəbəkə istifadəçiləri hansı informasiyaları yaymaq olar, hansılara ehtiyatlı yanaşmaq lazımdır barəsində bilgili olsunlar".

Müşfiq Ələsgərli sözlərinə belə davam edib: "Eyni zamanda, Azərbaycan müharibə şəraitində olduğu üçün çox intensiv şəkildə baş verən hadisələr zamanı atəşkəs pozulmaları, kiçik müharibələr halında Azərbaycanın hüquq-mühafizə orqanları, o cümlədən DİN, Baş Prokurorluq, Milli Təhlükəsizlik Nazirliyi tez-tez müraciətlər edirlər və əhaliyə hansı formalı informasiyaların yayılmasına məhdudiyyət qoymaları barədə məlumat verirlər. Bu qədər tədbirlərdən sonra yenə də kimlərsə sosial şəbəkələrdən çərçivəsiz şəkildə istifadə edirsə, qanunla yasaqlanmış informasiyaları yayırsa, əhalidə təşviş və narahatlıq doğurursa artıq məsuliyyət həmin informasiya yayıcısının öz üzərinə düşür".

"Son olaraq, Kəlbəcər və Laçın rayonları ərazisində baş verən insidentlər zamanı yanlış informasiya yayan şəxslərə yanaşma da bu qəbildən olmalıdır. Onlar artıq hansı dövrdə yaşadığını, sosial şəbəkələrdə hansı tipli informasiyaların yaymağın mümkün olması barədə bilgili olmalıdır. Əgər bu qaydalara məhəl qoymursa bu artıq şübhə yaradır ki, onlar bu işi bilərək həyata keçirirlər və xüsusi məqsədə xidmət edirlər. Aidiyyatı qurumların bu barədə müəyyən ölçülər götürməsi tam qanunvericiliyə uyğundur".

"Biz, düşünürük ki, bu cür priventiv addımlar həm Azərbaycanın təhlükəsizliyi üçün vacibdir, həm də insanlara bu sahədə bilgili olmalarının vacibliyini bir daha xatırlatmış olur. Hesab edirik ki, hüquq-mühafizə orqanları ədalətli araşdırmalar aparacaqlar. Əgər baş vermiş xətalar təsadüfdən və bilgisizlikdən yaranıbsa o zaman onlara humanist münasibət göstəriləcək. Azərbaycan hər birimizin vətənidir. Onun təhlükəsizliyinin qayğısına qalmaq bizim vətəndaş məsuliyyətimizdir".

***Ayşən Vəli***

# Əcnəbi ekspertlər:
# “İrəvan bu cür bəyanatlar verməklə vaxtı uzatmağa çalışır”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

**Noyabrın 23-də onlayn mətbuat konfransında Ermənistanın baş naziri Nikol Paşinyan bəyan edib ki, ”Ermənistan və Azərbaycan MDB çərçivəsində ərazi bütövlüyünü qarşılıqlı şəkildə tanıyıb. Demarkasiya və delimitasiya prosesdir və Ermənistan orada öz maraqlarını müdafiə etməlidir. Ümumiyyətlə, ”Ermənistan” deyəndə sərhədi olmayan amorf bir şeyi deyil, çox konkret bir sahəni başa düşməliyik”.**

Paşinyanın bu açıqlamasını necə izah etmək olar? Bu məsələdə ondan ayıq yanaşma gözləmək lazımdırmı? Yoxsa bu, İrəvanın üçtərəfli bəyanatın imzalanmasından bəri bütün müddət ərzində etdiyi kimi, bir növ süründürməçilik hiylısidir?

Bu suallarla cavabı Ukrayna Hərbi Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri Aleksandr Musiyenko, amerikalı politoloq və siyasi strateq Ceyson Cey Smart, Prudent Solutions (Bişkek) analitik mərkəzinin direktoru Esen Usubəliyev, Ukrayna Gələcək İnstitutunun analitiki, fəlsəfə doktoru İlya Kuse, Yaxın Şərq üzrə gürcü ekspert Vasili Papov ”Caliber” analitik mərkəzinə şərhlərində veriblər.













A.Musiyenkonun fikrincə, Ermənistan tərəfinin guya Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı müəyyən manipulyasiyası var, eyni zamanda bu məsələdən hər cür manipulyasiya etməyə və yayınmağa çalışır: ”Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını açıq şəkildə bəyan etməsi müsbət əlamətdir. Hesab edirəm ki, bu, yalnız ilk addımdır və bunu Ermənistan tərəfi həmişə olduğu kimi, məsələn, Paşinyan ”Qarabağ məsələsi ərazi deyil, hüquq məsələsidir” deməsi şərti ilə atılır. Bəs onda biz ərazi bütövlüyünün tanınmasını necə başa düşməliyik? Axı onun tanınması qanunla qırılmaz şəkildə bağlıdır. Paşinyan bununla öz məntiqini ərazi bütövlüyünün tanınması ilə razılaşmaqla yanaşı, həm də millətin öz müqəddəratını təyinetmə hüququnu özündə saxlamaq istəməsi ilə əvəz etmirmi?

Əslində, onun çox təhlükəli məntiqi var, ona görə də yekun razılaşmanın əldə olunduğunu, Ermənistanın dərhal öhdəliklərini yerinə yetirməyə və bütün əraziləri Azərbaycanın nəzarətinə keçirməyə hazır olduğunu söyləmək hələ tezdir, çünki həqiqətən belə olmalıdır,- həm ərazi, həm də hüquqi əsasda. Hələlik, onun açıqlamasına müəyyən şübhələrim var.

Hesab edirəm ki, bu, bir az sayıqlığı səngitmək və bununla da münaqişənin bitdiyini və İrəvana qarşı daha heç bir iddianın ola bilməyəcəyini göstərmək üçün hazırlanmış hiylədir.

Diqqət yetirməyə dəyər daha bir mühüm məqam- mətbuat konfransında Paşinyan Zəngəzur dəhlizi ilə bağlı açıq şəkildə danışıb. O, bəyan edib ki, dəhliz məntiqini qəbul etmir və Azərbaycanın şərtləri ilə nəqliyyat dəhlizinin açılmasını Ermənistan ərazisinə açıq-aşkar təcavüz hesab edir. Burada İrəvan faktiki olaraq bir il əvvəl əldə edilmiş üçtərəfli bəyanatın həmin bəndlərinin tanınmadığını və yerinə yetirilmədiyini nümayiş etdirir. Erməni tərəfi manipulyasiya etməyə və konsepsiyaları əvəz etməyə çalışır, ona görə də hesab edirəm ki, Azərbaycan bu məsələni müxtəlif beynəlxalq platformalarda qaldırmalıdır. Bunun regional səviyyədə qaldırılması, əlbəttə ki, yaxşıdır, amma burada, məsələn, BMT-də bu məsələnin daha geniş müzakirəyə çıxarılması vacibdir.

Erməni tərəfinin üçtərəfli bəyanatın bəndlərini yerinə yetirmədiyini birbaşa bəyan etmək lazımdır ki, bunun nəticəsində nəqliyyat kommunikasiyasının normal fəaliyyəti bloklanır, bu, həm humanitar, həm də iqtisadi vəziyyətə təsir edir, çünki bu dəhliz açıldıqdan sonra, tranzit axınları artacaq, iqtisadi fəaliyyətin kommunikasiyası üçün daha çox imkanlar olacaq. Şübhəsiz ki, bu, Azərbaycanın güclənməsidir, ona görə də erməni tərəfi mane olur”.

C.Smart hesab edir ki, Paşinyanın açıqlaması Azərbaycan üçün yaxşı əlamətdir: ”Əslində bu, mühüm addımdır. Qarabağla bağlı Paşinyan bəyan edib ki, ”bu məsələnin beynəlxalq yanaşmalarla əlaqələndirilməsi vacibdir”. Bu, Azərbaycan üçün yaxşı əlamətdir, çünki beynəlxalq ictimaiyyət vəziyyəti fəal şəkildə izləyir və Ermənistan tərəfinin hər hansı əsassız addım atması çətin olacaq. Regionda sabitliyin sülh yolu ilə möhkəmləndirilməsi istiqamətində istənilən irəliləyiş alqışlanır. İnsanlar özlərini təhlükəsiz hiss etməlidirlər.

E.Usubəliyev qeyd edir ki, bu, Ermənistan tərəfindən həm ikitərəfli, həm də regional səviyyədə vəziyyətin tədricən normallaşması yolunda mühüm addımdır: ”Ermənistanın baş nazirinin bəyanatı yeni geosiyasi reallığın tədricən tanınmasına və bu ölkə üçün mövcud çətin iqtisadi və siyasi vəziyyətdən çıxış yolunun axtarılmasının zəruriliyinə dəlalət edir. Azərbaycanın ərazi bütövlüyünün tanınması Ermənistanın siyasi dairələrinin ilk psixoloji addımıdır. Təbii ki, bu, son dərəcə qütbləşmiş ictimai əhval-ruhiyyəni əks etdirmir - bəziləri üçtərəfli bəyanatın nəticələrini tanımağa hazırdır, digər hissəsi revanşist əhval-ruhiyyə ilə çıxış edir.

Hər halda, fikrimcə, bu, Ermənistan tərəfindən həm ikitərəfli, həm də regional səviyyədə vəziyyətin tədricən normallaşması istiqamətində mühüm addımdır. Vaxtın uzanmasına gəlincə, Ermənistanın siyasi dairələrində Azərbaycanla bağlı problemlərin həlli yolu ilə bağlı müxtəlif fikirləri nəzərə alaraq, bu ehtimalı istisna etmək olmaz.

Ancaq yenə də mənə elə gəlir ki, zaman faktoru Ermənistanın əlinə işləmir- əgər onlar üçtərəfli bəyanat nəticəsində açılan imkanları əldən versələr, sonradan regionun gələcək inkişafı şansını əldən verəcəklər. yeni genişlənmiş nəqliyyat və rabitə şəbəkələrini. Hansı ki, bu ölkə üçün son dərəcə vacibdir.

Bəlkə də məhz İkinci Qarabağ müharibəsinin nəticələridir ki, bu ölkəyə ilk dəfə olaraq iqtisadi vəziyyətini xeyli yaxşılaşdırmaq şansı verir. Eyni zamanda, istisna etmək olmaz ki, Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması həm birbaşa - Rusiya, həm də dolayısı ilə Türkiyə və hətta İran tərəfindən edilən xarici təsirlərin nəticəsidir.

Bütün bu ölkələr ümidlərini regional blokun açılmasına bağlayırlar ki, bu da onlar üçün xarici siyasət təşəbbüslərində son dərəcə əhəmiyyətlidir. Bu baxımdan Ermənistanın barışmazlığı ciddi manəə yaradırdı. Növbəti addım Türkiyə ilə münasibətlərin normallaşması olmalıdır. Bu addım olmadan Ermənistanın iqtisadi dirçəliş və inkişaf şansı olmayacaq”.

İ.Kusanın fikrincə, Paşinyanın bəyanatları daha çox Ermənistanda daxili siyasi prosesləri əks etdirir, burada ”köhnə elita” içərisindən hakimiyyətlə müxalifət arasında mübarizə gedir: ”Məncə, bu bəyanatların Qarabağ ətrafındakı vəziyyətə və ya iki ölkə arasındakı münasibətlərə heç bir aidiyyəti yoxdur. De-yure, qarşılıqlı sərhədlərin tanınması adətən müvafiq sazişin imzalanmasından sonra baş verir. Və belə deyildi. Bundan əlavə, bu bəyanatların Qarabağın ”statusuna” da təsir göstərməsi ehtimalı azdır, çünki bu məsələ beynəlxalq razılaşmalara əsasən, ATƏT-in Minsk qrupu çərçivəsində həll olunmalıdır”.

V.Papov hesab edir ki, İrəvan bu cür bəyanatlar verməklə vaxtı uzatmağa çalışır: ”İkinci Qarabağ müharibəsində məğlubiyyətə uğrayan, Rusiya və KTMT-nin dəstəyi olmadan qalan Ermənistan Azərbaycana ciddi güzəştlərə getməyə məcburdur. Söhbət təkcə onun 30 il ərzində işğal etdiyi ərazilərdən imtinasından getmir, həm də Azərbaycanın ərazi bütövlüyünün tanınmasından gedir ki, bu da öz növbəsində SSRİ-nin tərkibində mövcud olan sərhədlərin, yəni Qarabağın Azərbaycanın bir hissəsi kimi avtomatik olaraq tanınmasına səbəb olacaq. Amma İrəvan bu cür bəyanatlarla vaxtı gecikdirməyə çalışsa belə, bu cür cəhdlər uğur qazanmayacaq.

Öz növbəsində Azərbaycanda İrəvanın kənardan təzyiq olmadan belə güzəştlərə gedəcəyi ilə bağlı heç bir illüziya yoxdur. Paşinyanın danışdığı saziş imzalanana qədər Bakı İrəvana həm siyasi, həm də hərbi təzyiq göstərəcək”.

***Tərcümə - Elçin Bayramlı***

# "Messiyə ayıb deyil?"



Niderland millisinin sabiq futbolçusu Rafael van der Vart PSJ-nin hücumçusu Lionel Messini tənqid edib . Qol.az Mundo Deportivo"ya istinadən xəbər verir ki, o, argentinalı hücumçu ilə bağlı deyib: "Messi məni kədərləndirir. Bu, iradə məsələsidir. Ya istəyərsən, ya da istəməzsən. Messiyə tələb var. Qol vurmasa və ya qol ötürməsi verməsə, deməli, pis oynayıb. Neymar və Mbappe daha çox iş görür.

Məsələn, Kriştiano Ronaldo. İki fərqli oyunçu olmalarına baxmayaraq, Ronaldo mübarizə aparır və komandanı növbəti səviyyəyə çıxarmaq istəyir. Messi vaxtaşırı meydançada gəzir, mən də düşünürəm ki, Messiyə ayıb deyil? Messiyə görə üzülürəm. Ayıbdır, çünki belə futbolçu bir daha dünyaya gəlməyəcək. Messi kimi oyunçunun bu cür oyunu doğru deyil".

# Mobil telefonlar beyin xərçəngini yaradır?

**Son zamanlar bütün dünyada beyin xərçəngi artmaqdadır. Bəzi mütəxəssislər bunu qəcetlərdən uzun müddət ərzində istifadə etməsi ilə əlaqələndirir. Lakin araşdırmalar bunu inkar edir. Son belə araşdırma da növbəti dəfə sübut edib ki, mobil telefonları və digər qəcetlərdən istifadə beyin xərçənginin yaranmasına heç bir təsir etmir və bu xəstəliyin riskini artırmır.**

Bu barədə Medicalxpress xəbər verir ki, Avstraliya və Yeni Zelandiya alimləri uzun illər ərzində 20-59 yaşlar arası və 60 yaşdan sonra olan 2 qrup insanlara nəzarət edirdilər. Nəticədə alimlər belə qənaətə gəliblər ki, mobil telefonlar bu yaş qruplarında xərçəngin inkişafına səbəb olmur.

Alimlər qeyd edir ki, bu araşdırma növbəti dəfə sübut edib ki, mobil telefonlar və beyin xərçəngi arasında əlaqə yoxdur.



# Məktəblilərin narkotik vasitələrdən istifadəsinin səbəbi sosial şəbəkələrdir




"Azərbaycanda narkomaniyaya cəlb olunan və buna təhrik edilən azyaşlıların sayı ilə bağlı rəqəmlər çox da qorxulu deyil". SİA xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin Bakı Şəhər Baş polis idarəsinin İctimai Təhlükəsizlik İdarəsinin Baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova jurnalistlərə açıqlamasında deyib.

DİN rəsmisi bunu Azərbaycan xalqının milli dəyərlərdən çıxış etməsi ilə əlaqələndirib: "Çünki ölkədə uşaqların gələcəyini qorumaq üçün ciddi səylə çalışılır: "Məktəblilərin daha çox kimlər tərəfindən zərərli vərdişlərə təhrik olunması məsələsinə gəldikdə burada bir çox amillər var. Başlıca səbəblərdən biri sosial şəbəkələrdir. Son zamanlar sosial şəbəkələr üzərindən narkotik vasitələrin satışı hallarına rast gəlinir. İşbazların azyaşlıları bu işə sövq etməsi daxili işlər orqanlarını narahat edir. Aidiyyəti dövlət orqanları bununla bağlı ciddi mübarizə aparır". K.Ələkbərova bildirib ki, məktəblilərdə zərərli vərdişlərin yaranması daha çox 14 yaşdan başlayaraq müşahidə olunur.

# Model canlı yayında özünə atəş açıb



ABŞ-ın Konnektikut ştatının Tomaston şəhərində baş verən hadisə bir anda dünya gündəminə çevrilib. SİA xarici mətbuata istinadən xəbər verir ki, seksual platforma üçün müxtəlif məzmunlar hazırlayan 27 yaşlı model, yataq otağında ölü tapılıb. İddiaya görə, Lauren Hunter Daman sayt üçün video hazırlayarkən silahdan qəfil atəş açılıb. Anidən açılan atəş nəticəsində güllə qadının vaginasına dəyib.

*Rüqəyya Orucova*

# Təhsil tələbə kreditləri neçə faizlə veriləcək?

**Təhsil tələbə kreditlərinin faizləri açıqlanıb. SİA-nın məlumatına görə, bu barədə təhsil tələbə kreditlərinə müraciətlərin başlanılması ilə bağlı brifinqdə təhsil nazirinin müavini İdris İsayev məlumat verib.**

**Onun sözlərinə görə, faizləri Təhsil Tələbə Krediti Fondunun Himayəçilik Şurası Təhsil Nazirliyi və Nazirlər Kabineti ilə razılaşdırılaraq müəyyən edib. "Sosial kreditlər 2 faizlə, standart kreditlər isə 6 faizlə veriləcək", - İ.İsayev deyib. Qeyd edək ki, sosial kreditlər sosial həssas qruplara veriləcək:**

**Ünvanlı sosial yardım alan, 3-cü qrup əlillik təyinatı olan, valideynləri ilə münasibətdə aşağıdakı şərtlərlə**

**- Valideynləri işsiz olanlar,**
**- 1 və 2-ci dərəcə əlilliyi olanlar, işsiz kimi qeydiyyatda olanlar,**
**- yaşa görə əmək pensiyası alanlar,**
**- yaşa görə sosial müavinət alanlar.**



## ELAN

**"Sünbül"ASC -nin Səhmdarlarının nəzərinə!**

28 dekabr 2021-ci il saat 11-00 da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir. İclasın gündəliyi. 2020-ci ilin illik hesabatlarının təsdiqi.

Ünvan: Bakı şəhəri, Binəqədi r-nu, Azadlıq metrosunun yanı. "Odun" kafesi. Telefon: 012 594-09-94.

***

Şuşada N saylı hərbi hissədə xidmət edən leytenant Mənsimli Zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**